QARABAĞ AZƏRBAYCANDIR!



## Azad Laçın iki il sonra: abadlıq-quruculuq meydanında

11

# Sülh Azərbaycanda dövlət siyasətinin tərkib hissəsidir

2



SƏS
№ 220 (6661) 1 dekabr 2022-ci il. Qiyməti 60 qəpik

# Rusiyanın, yoxsa Volkovun "sülhməramlıları"?

*Bütün müharibələrin başlama və bitmə şəraiti demək olar ki, eynidir. Məhəlli, yəni iki ölkə arasında gedən müharibənin səbəb və hansı tempindən, eyni zamanda itkilərin qədərindən asılı olmayaraq sonu təxminən eyni bitir. Kiminsə, hansısa beynəlxalq təşkilatın, yaxud dövlətlər birliyinin vasitəçiliyi ilə danışıqlar başlayır və yekunda tərəflər arasında sülh imzalanır.*

8



## "Ermənistanın öhdəliklərini yerinə yetirməsi vacibdir"



3

## Türkiyəli ekspert: "İran yeni geosiyasi vəziyyətdən ən çox narahat olan ölkələrdən biridir"



9

## Daşınmaz əmlak alqı-satqı qaydaları dəyişdi: Mülki Məcəlləyə dəyişiklik



15

## Könüllülük fəaliyyəti gənclərə nə verir?



6

## Naxçıvanda antikorrupsiya tədbirləri niyə siyasiləşdirilir?



*Bir neçə gündür ki, mediada Naxçıvanla bağlı ziddiyyətli xəbərlər yayılır. Sosial şəbəkələrdə spekulyasiyalar və dezinformasiyalar baş alıb gedir.*

6

# Sülh Azərbaycanda dövlət siyasətinin tərkib hissəsidir



***Azərbaycana dünyanın müxtəlif dövətlərinin marağının artması ölkəmizin siyasi gücünə, iqtisadi inkişafına, sülhsevər dövlət olmasına əsaslanır. Müstəqillik tariximizdə ölkəmizin etibarlı tərəfdaş olması, təhlükəsizliyə, sabitliyə verdiyi töhfələrin məntiqi nəticəsidir ki, Azərbaycan beynəlxalq ictimaiyyətin nüfuzlu üzvünə çevrilərək BMT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası kimi beynəlxalq qurumların üzvüdür. Müasir dünyada Azərbaycan artıq ən qlobal mahiyyət kəsb edən və dünyanın marağında olan mövzuların müzakirə olunduğu bir məkana çevrilib.***

## *Prezident İlham Əliyev: "Biz Qarabağın və Zəngəzurun bərpasını bütün ölkənin yenidən qurulmasının modeli hesab edirik"*

44 günlük Vətən müharibəsində Azərbaycanın qazandığı Zəfərdən sonra keçirilən beynəlxalq tədbirlərdə işğaldan azad olunan ərazilərimizin dirçəldilməsi və beynəlxalq nəqliyyat dəhlizlərinin mühüm komponentinə çevrilməsi istiqamətində görülən işlərin təbliğinə geniş yer verilir. Ötən gün noyabrın 25-də Bakıda, ADA Universitetində ”Orta Dəhliz boyunca: geopolitika, təhlükəsizlik və iqtisadiyyat” mövzusunda keçirilən beynəlxalq konfransda dünyanın müxtəlif ölkələrin ABŞ, Belçika, Bolqarıstan, Böyük Britaniya, Fransa, İsrail, İsveçrə, İtaliya, Gürcüstan, Kanada, Misir, Pakistan, Polşa, Rumıniya, Rusiya və Türkiyənin aparıcı beyin mərkəzlərinin rəhbərləri və nümayəndələri iştirak ediblər.Konfransın açılışında çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev işğaldan azad olunan ərazilərimizdə aparılan abadlıq-quruculuq işlərinə nəzər salaraq Ağalı kəndinin sakinlərinin artıq məskunlaşdıqlarını qeyd edərək bildirib ki, bu, yalnız Qarabağın işğalı dövründə əziyyət çəkmiş keçmiş köçkünlər qarşısında bizim mənəvi borcumuzun təzahürü deyil: ”Biz Qarabağın və Zəngəzurun bərpasını bütün ölkənin yenidən qurulmasının modeli hesab edirik”. Şərqi Zəngəzurda və Qarabağda görülən işlər Azərbaycanın azad olunmuş ərazilərində yenidənqurma işlərinin necə sürətlə aparıldığının göstəricisidir.

### ”ERMƏNİLƏR ÖVLADLARINI TÜRKİYƏYƏ VƏ AZƏRBAYCANA NİFRƏT RUHUNDA TƏRBİYƏ EDİRLƏR”

Dövlət başçısının rəhbərliyi ilə Azərbaycanın Vətən müharibəsində qazandığı Qələbədən dərhal sonra dövlətimizin başçısının Cənubi Qafqazın sülh və əməkdaşlıq regionuna çevrilməsi istiqamətində həyata keçirdiyi ardıcıl və mütərəqqi siyasət beynəlxalq ictimaiyyətin diqqətindədir. Xatırladaq ki, cari ilin aprelin 10-13-də ADA Universitetində ”Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq”, 29-da isə ”Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq” mövzusunda beynəlxalq konfranslar, oktyabrın 5-6-da Ağdamda Milli Şəhərsalma Forumu və digər tədbirlər böyük maraqla qarşılanıb.Əlbəttə ki, sülh bütövlükdə dünya insanın arzuladığı nemətdir, dəyərdir. Sülh olan yerdə əmin-amanlıqdan, inkişafdan danışa bilərik. Bütün dünyada və bölgədə gedən müxtəlif mənfi proseslərə baxmayaraq, Azərbaycanın hərtərəfli və dinamik şəkildə inkişafı, müstəqil, çoxşaxəli və milli maraqlara söykənən xarici siyasət kursu onun Cənubi Qafqaz regionunun inkişaf etmiş ölkəsi olaraq qalmasını təmin edib. Bu baxımdan, müasir dövrdə Azərbaycan yalnız regionda gedən proseslərə deyil, eyni zamanda, beynəlxalq aləmdə cərəyan edən proseslərə təsir göstərmək imkanı qazanaraq, sülhsevər siyasətini həyata keçirir.Sülh Azərbaycanda dövlət siyasətinin tərkib hissəsidir və bu siyasət Azərbaycanın beynəlxalq aləmdə imicini artırır.

Azərbaycan Prezident çıxışında regionda dinc birgəyaşayışa nəzər salaraq erməni cəmiyyətinin onilliklər ərzində erməni diasporu və erməni millətçiləri tərəfindən aparılmış təbliğat ilə zəhərləndiyini bildirib: ”Bu, ermənilərin Qarabağın azərbaycanlı kəndlərində və şəhərlərində, həmçinin azərbaycanlılara qarşı törətdiklərinin səbəblərindən biridir. Ermənilər övladlarını Türkiyəyə və Azərbaycana nifrət ruhunda tərbiyə edirlər”. Dövlətimizin başçısı bildirib ki türkofobiya və azərbaycanofobiya Ermənistanın ideologiyası olmuşdur: ”Onlar özlərinin tarixi və tarixi şəxsləri haqqında o qədər miflər fikirləşiblər ki, artıq özlərinin uydurmalarına inanmağa başlayıblar. Ermənistanın bütün tarixi, Ermənistanın bütün tarixi irsi saxtadır”.

### ”AZƏRBAYCANA QARŞI BU QƏDƏR NİFRƏT VƏ HƏDƏ-QORXU İLƏ DOLU BƏYANAT VERİLMƏMİŞDİ”

44 günlük Vətən müharibəsindəki əldə olunan şanlı Qələbə və regionda yaranan reallıqlar fonunda ölkəmizin inkişafı bir sıra dövlətlər kimi İran da həzm edə bilməyib. İranın Ermənistana açıq dəstək ifadə etməsi, rəsmi səviyyəli səfərlər bu dövlətin anti-Azərbaycan siyasət yürütdüyünü açıq-aydın göstərir. Zəfər qazanaraq regionda yeni reallıqlar yaratmış Azərbaycanın Ermənistanla sülhün əldə edilməsinə, Zəngəzur dəhlizinin reallaşdırılmasına ciddi cəhdlə təsir edir. Ölkəmizə dost, mehriban qonşu kimi özünün təqdim edən İranın Azərbaycanla sərhəddə 30 ildə ilk dəfə irimiqyaslı hərbi təlimlərin keçirilməsi hərbi avantüra və səmərəsiz əzələ nümayişidir. ”Mən İranın üç prezidenti - Hatəmi, Əhmədinejad və Ruhani ilə işləmişəm. Bütün bu illər ərzində bugünkünə bənzər vəziyyət yaranmamışdı. Heç vaxt İran bizim sərhədimizdə bir neçə ay müddətində iki hərbi təlim keçirməmişdi. Heç zaman Azərbaycana qarşı bu qədər nifrət və hədə-qorxu ilə dolu bəyanat verilməmişdi”, - deyə Azərbaycan Prezidenti bildirib: ”Biz hər zaman istənilən anti-Azərbaycan bəyanatına və hərəkətinə cavab verməşik və verəcəyik. Bu səbəbdən biz İran ilə sərhəddə hərbi təlimlər keçirməli olduq ki, onlardan qorxmadığımızı nümayiş etdirək. Biz həyat tərzimizin, Azərbaycanın dünyəvi inkişaf vektorunun və azərbaycanlıların, o cümlədən İranda yaşayan azərbaycanlıların müdafiəsi üçün əlimizdən gələni edəcəyik. Onlar xalqımızın bir hissəsidir”.Heç şübhəsiz ki, dünyada çəkisi olan Azərbaycanla hədə-qoxu, diktə ilə danışmaq mümkün deyil. Əminliklə qeyd edək ki, güclü və qüdrətli Azərbaycan gərginliyin aradan qaldırılması üçün sülsevər siyasətinin ortaya qoyaraq, lazımi addımlar atacaqdır.

### ”AZƏRBAYCANDA TƏDRİSİN RUS DİLİNDƏ APARILDIĞI 340 MƏKTƏB FƏALİYYƏT GÖSTƏRİR”

Cənab Prezident konfrans iştirakçılarının diqqətinə onu da çatdırıb ki, Azərbaycanda tədrisin rus dilində aparıldığı 340 məktəb fəaliyyət göstərir. Bununla yanaşı, respublikada 10 məktəbdə tədris gürcü dilindədir: ”Gürcüstanda 116 azərbaycandilli məktəb var. İranda tədrisin erməni dilində aparıldığı məktəblər var, ancaq Azərbaycan dilində tədrisin olduğu məktəb yoxdur. Bu necə ola bilər? Əgər kimsə deyir ki, bu, daxili işlərə müdaxilədir, biz bunu tamamilə rədd edirik. Azərbaycanın xarici siyasəti gün kimi aydındır - biz heç bir dövlətin daxili işinə qarışmamışıq və qarışmırıq”. Dövlətimizin başçısı onu da bildirib ki, biz İran məktəblərində Azərbaycan dilində tədris məsələsini ona görə qaldırırıq ki, əks təqdirdə, ana dilində danışan İran azərbaycanlıları dilin ədəbi komponentini itirirlər və Azərbaycan dili sadəcə məişət səviyyəsində qalır.

Konfransda Orta Dəhlizin təhlükəsizlik aspektləri, regionun iqtisadi imkanları, Zəngəzur dəhlizinin əhəmiyyəti, Şərq-Qərb dəhlizinin yaradacağı yeni nəqliyyat imkanları, beynəlxalq yükdaşımalarının genişləndirilməsi və şaxələndirilməsi məsələləri ilə bağlı fikir mübadiləsi aparılıb. İstər ictimai-siyasi baxışları, istər mədəni-sosial layihələri, istərsə də mötəbər təbdirlərin iştirakçısı olaraq, Şərqlə Qərbin ortaq dəyərlər modeli sayılan Azərbaycan dünya üçün bir örnək olan ölkəyə çevrilib.

***Nəzakət ƏLƏDDİNQIZI***

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Cəlilabad rayonunun Abazallı-Təklə-Şorbaçı-Mədətli-Novruzallı-Məmmədrzalı-Məşədilər-Dostallı-Şötüklü-Boyxanlı-Məlikqasımlı və Şiləvəngə-Adnalı-Bədirli avtomobil yollarının tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirak edən şəxslərin təltif edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edən bir qrup şəxsə ”Əməkdar jurnalist” fəxri adı və Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilib.

# “Ermənistanın öhdəliklərini yerinə yetirməsi vacibdir”

***Dünən xarici işlər naziri Ceyhun Bayramov Polşanın paytaxtı Varşava şəhərində Azərbaycanşünaslıq üzrə I Avropa Konfransı çərçivəsində "Bölgədə yeni reallıqlar: Cənubi Qafqazda təhlükəsizlik arxitekturasının və davamlı sülhün perspektivləri" mövzusunda tədbirdə iştirak edib.***




Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, Avropadan 30-a yaxın düşüncə və tədqiqat mərkəzinin nümayəndələrinin qatıldığı tədbirdə nazir Ceyhun Bayramov çıxış edib.

Nazir Azərbaycanın xarici siyasətinin prioritetləri, Vətən müharibəsindən sonra bölgədə yaranmış yeni reallıqlar nəzərə alınmaqla regionda sülhün və əmin-amanlığın təmin edilməsi istiqamətində səyləri barədə ətraflı məlumat verib. C.Bayramov, eyni zamanda, Ermənistanla sülh gündəliyi üzrə təkliflər, aparılan danışıqlarda Azərbaycanın mövqeyi və yanaşması barədə iştirakçıları məlumatlandırıb.

Azərbaycanın bölgədə apardığı bərpa və quruculuq işlərinin, kommunikasiyaların açılması istiqamətində fəaliyyətin bütün bölgənin rifahı üçün əhəmiyyətli olduğu diqqətə çatdırılıb. Bununla yanaşı, Azərbaycanın sülh gündəliyinin irəli aparılması istiqamətində səylərinə və təkliflərinə baxmayaraq, Ermənistanın 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanatdan və Azərbaycan-Ermənistan liderləri arasında digər razılıqlardan irəli gələn öhdəliklərini yerinə yetirməməsi, normallaşma prosesinə və bölgədə davamlı sülhün bərqərar olmasına maneçilik törətdiyi bildirilib. Bölgədə davam edən mina təhdidləri və Ermənistan tərəfindən bu istiqamətdə həyata keçirilən təxribatlara diqqət yönəldilib.

Son dövrlərdə bölgədə və dünyada baş verən hadisələr fonunda enerji təhlükəsizliyinin artan əhəmiyyətindən bəhs edən Ceyhun Bayramov enerji təhlükəsizliyinin təmin edilməsi istiqamətində çoxtərəfli əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğulayıb. Alternativ enerji mənbələrindən istifadə sahəsində geniş potensiala malik ölkə kimi Azərbaycanın bu sahədə əməkdaşlığın inkişaf etdirilməsinə əhəmiyyət verdiyi qeyd olunub. Bu xüsusda cari ilin iyul ayında Avropa İttifaqı ilə imzalanmış Anlaşma Memorandumunun əhəmiyyəti diqqətə çatdırılıb.

Nazir Şərq-Qərb Orta Dəhlizi boyunca bağlantıların gücləndirilməsi istiqamətində Azərbaycanın bir sıra uğurlu layihələr icra etdiyini, Vətən müharibəsindən sonra nəqliyyat-kommunikasiya yollarının bərpası istiqamətində işlər həyata keçirildiyini vurğulayıb. O, 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın 9-cu bəndi çərçivəsində Ermənistanın öhdəliklərini yerinə yetirməsinin vacibliyini, bölgədə bütün nəqliyyat və kommunikasiyaların açılmasının inkişafa mühüm töhfə olacağını bildirib.

# Xarici jurnalistlər Cəbrayıl və Zəngilan rayonlarına səfər ediblər







Xarici ölkələrdəki ispandilli kütləvi informasiya vasitələrində fəaliyyət göstərən bir qrup jurnalist İsraildəki Azərbaycan diasporunun dəstəyi ilə Azərbaycana səfər edib. Belə ki, səfər çərçivəsində xarici jurnalistlər Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov, xarici işlər nazirinin müavini Fariz Rzayev, gənclər və idman naziri Fərid Qayıbov, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı ilə görüşüblər. Qonaqlara Ermənistan-Azərbaycan münaqişəsinin tarixi, Qarabağ həqiqətləri, Ermənistanın 30 illik işğal zamanı törətdiyi cinayətlər, dini-mədəni abidələri məhv etməsi, 44 günlük Vətən müharibəsi dövründə cəbhə xəttindən uzaqda yerləşən yaşayış məntəqələrinə raket hücumları barədə ətraflı məlumat verilib.

Xarici jurnalistlər noyabrın 29-da işğaldan azad edilmiş Cəbrayıl və Zəngilan rayonlarına səfər ediblər. İki rayonun ərazisində Ermənistanın vəhşicəsinə törətdiyi dağıntıların və vandallıq aktlarının şahidi olan jurnalistlər foto və video çəkilişlər aparıb, Xudafərin körpüsündə və Zəngilanın Ağalı kəndində olublar. Onlara postmüharibə dövründə minaların təmizlənməsi, aparılan irimiqyaslı bərpa və yenidənqurma işləri, "ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə əhalinin köçürüldüyü barədə müfəssəl məlumat verilib.

Qeyd edək ki, qrupun tərkibində "El Espasol" onlayn jurnalının, "La Vanguardia" (Barselona) və "La Razsn" (Madrid) qəzetlərinin, "SIC", "Mediaset Espasa", "La Vanguardia", "Haaretz" media qurumlarının, "The Jerusalem Post Magazine" və "The Berlin Quarterly" jurnallarının əməkdaşları yer alıblar.

# Ərəb mediası Azərbaycanın qlobal enerji təhlükəsizliyində rolundan yazıb

***Azərbaycan Prezidenti İlham Əliyevin Əlcəzairdəki Ərəb Dövlətləri Liqasının Sammitində fəxri qonaq qismində iştirakı iki dost ölkənin əlaqələrinin inkişafında yeni mərhələnin başlanğıcı olub. İki böyük qaz ixracatçısı olan Azərbaycan və Əlcəzair, eyn zamanda, daha sıx əməkdaşlıq etməklə qlobal enerji təhlükəsizliyinə də mühüm töhfə verə bilər.***






AZƏRTAC xəbər verir ki, bu fikirlər energetika naziri Pərviz Şahbazovun Əlcəzairə səfəri və bu ölkənin Energetika və Mədən Nazirliyi ilə qarşılıqlı investisiyalara dair anlaşma memorandumunun imzalanması barədə ərəb mediasının dərc etdiyi materiallarda yer alıb. Rəsmi APS, "AfrikaEconomy", "Attaqa", "Şuruq", "Əl Vəsit" və "Əl Hərir" qəzet və portallarında yayımlanan materiallarda Azərbaycanın energetika nazirinin Əlcəzairin Baş naziri Aymin Benəbdərəhman və energetika və mədən naziri Mohamed Arkab ilə görüşlərinin iki dost ölkə arasında sürətlə inkişaf edən əlaqələrin daha bir örnəyi olduğu vurğulanıb. Oxucuların diqqətinə çatdırılıb ki, neft-qaz, neft-kimya və bərpaolunan enerji sahələrində, həmçinin SOCAR ilə "Sonatrach" və "Sonelgaz" şirkətləri ilə əməkdaşlıq, o cümlədən qarşılıqlı investisiyalar iki dost ölkənin maraqlarına xidmət etməklə yanaşı, həm də qlobal enerji təhlükəsizliyi məsələlərində böyük əhəmiyyət kəsb edir.

Materiallarda Azərbaycan və Əlcəzair arasında "OPEC+" və Qaz İxracatçısı Ölkələrin Forumu çərçivəsində əməkdaşlığının da yüksək səviyyədə olduğu vurğulanıb.

# 2022-ci il "ŞUŞA İLİ" - böyük qayıdışın təntənəsi!




***Ali Baş Komandan, Prezident İlham Əliyevin 2022-ci ili "Şuşa İli" elan etməsi uğurla başa çatmaqdadır. 11 ay öncə Prezident İlham Əliyev 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində 2022-ci ili "Şuşa İli" elan etdi. 5 yanvar 2022-ci ildə isə Prezidentin 2022-ci ilin "Şuşa İli" elan olunması haqqında Sərəncamı ilə bu qərar hüquqi qüvvəyə mindi.Dövlət başçısı xalqa müraciətində bildirdi: "Biz 2022-ci ildə Şuşa şəhərinin 270 illiyini qeyd edəcəyik.***

Pənahəli xan 1752-ci ildə Şuşanın təməlini qoyub və biz yeni ildə bu yubileyi böyük təntənə ilə qeyd edəcəyik. Bu şanlı tarixi nəzərə alaraq və Şuşanın bərpasının sürətləndirmək məqsədilə mən yeni ili "Şuşa İli" elan edirəm". Bu qərar dünyanın hansı nöqtəsində yaşamasından asılı olmayaraq hər bir azərbaycanlının qəlbini fərəh, böyük qürur və iftixar hissi ilə doldurdu. Prezidentin 7 may 2021-ci il tarixli sərəncamı ilə zəngin və şanlı tarixi keçmişə malik Şuşa şəhəri mədəniyyət paytaxtı elan edildi. Bunun ardınca, 2022-ci ilin Şuşa İli elan edilməsi həm tarixi, həm də mədəni baxımdan mühüm əhəmiyyət kəsb edən qədim şəhərimizə verilən ən böyük dəyərin göstəricisidir. Bəli, qələbədən sonra dövlət başçısının məhz zəfər və quruculuq ili olan 2021-ci il, ardınca 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında Sərəncamları bir daha dövlət başçısının xalqa bəxş etdiyi Qarabağ Azərbaycan olmaqla, həm də hər bir azərbaycanlını qürurlandırır. Bu Sərəncam, əslində, Azərbaycanın tarixən mədəniyyət paytaxtı olan Şuşanın beynəlxalq aləmdə tanıdılması baxımından çox önəmlidir. Şuşa işğaldan azad olunandan sonra artıq düşmən dərk etdi ki, bundan sonra Azərbaycana qarşı müqavimət göstərmək heç bir əhəmiyyət kəsb etməyəcək. Şuşa işğaldan azad olunandan bir gün sonra qəhrəman Azərbaycan Ordusu daha 70-dən çox yaşayış məntəqəsini işğalçılardan azad edib və əslində, bu, düşmənə vurulan son zərbə idi. Təsadüfi deyil ki, noyabrın 10-da düşmən faktiki olaraq kapitulyasiya aktını imzaladı.Azərbaycan Prezidenti bildirmişdir ki, Şuşanın işğaldan azad edilməsi bizim gücümüzü göstərdi: "Şuşanın işğaldan azad edilməsi bizim gücümüzü göstərdi, ordumuzun peşəkarlığını, hərbçilərimizin cəsarətini, qəhrəmanlığını göstərdi. Şuşanın götürülməsi çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi. Əminəm ki, bu əməliyyat dünya hərb tarixində xüsusi yer tutacaqdır. Çünki bu əməliyyatı yalnız yüngül silahlarla silahlanmış bizim qəhrəman hərbçilərimiz dağlardan, meşələrdən, cığırlardan keçərək icra ediblər. Şuşanın işğaldan azad edilməsi bizim şanlı Qələbəmizdir".

### QAYIDIŞ ŞUŞADAN - ƏN YÜKSƏKLİKDƏN BAŞLAMALIDIR

Sözsüz ki, Qayıdış Şuşadanən yüksəklikdən başlamalıdır, çünki hazır olan, vacib, əsas olan Şuşadır! Elə buna görə də Şuşa zəfərindən dərhal sonra şəhərdə infrastrukturun qurulması ilə yanaşı, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılmış, quruculuq işlərinin təşkilində çevikliyin, səmərəliliyin təmin olunması üçün burada dövlət idarəetməsinə böyük diqqət yetirilməkdədir. Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada bu gün şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir. Qısa müddətdə Şuşanın Baş planının hazırlanması, qüdrətli şair Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin öz ilkin görkəminə qaytarılması, Bülbülün ev-muzeyinin və Üzeyir Hacıbəylinin heykəlinin açılışları, habelə buradakı tarixi, dini və memarlıq abidələrinin bərpası prosesi ölkəmizin mədəniyyət paytaxtındakı kompleks işlərin tərkib hissəsidir. Cıdır düzündə "Xarıbülbül" musiqi festivalının və Vaqifin möhtəşəm məqbərəsi önündə Vaqif Poeziya Günlərinin təşkili ənənəsinin bərpası da göstərir ki, Şuşa sürətlə dirçələrək əvvəlki dolğun mədəni həyatına qovuşmaq yolundadır.

### DÜŞMƏNİN 28 İLLİK İŞĞAL DÖVRÜNDƏ BURADA QURA BİLMƏDİKLƏRİNİ AZƏRBAYCAN DÖVLƏTİ "ŞUŞA İLİ"NİN 11 AYINDA HƏYATA KEÇİRDİ VƏ BU PROSES BU GÜN DƏ DAVAM EDİR

Azərbaycanın milli və dövlətçilik maraqlarını daim üstün tutan Prezident, Ali Baş Komandan İlham Əliyev 2020-ci il noyabrın 8-də Şuşa şəhərinin azad olunması münasibətilə xalqa müraciətində deyib: "İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür!" Bəli, bu gün bütün bərpa işləri planlı şəkildə və yüksək səviyyədə görülür. Düşmənin 28 illik işğal dövründə burada qura bilmədiklərini Azərbaycan dövləti "Şuşa İli"nin 11 ayında həyata keçirdi və bu proses indi də davam edir.2021-ci ilin yanvarın 14- də isə Ali Baş Komandan İlham Əliyevin azad edilmiş Şuşaya ilk səfəri reallaşdı ki, bununla da azad Şuşanın dirçəliş dövrü başladı. O Şuşanın ki, hər zaman tariximizin, mədəniyyətimizin, ruhumuzun incisi hesab edilib, qəhrəmanlıq salnamələrimizin hünər, cəng meydanı olub. Prezident İlham Əliyev 2021-ci ilin yanvarın 14-də Şuşaya Zəfər yolu ilə səfər edərək illərdir didərgin həyatı yaşayan Natəvanın, Üzeyir bəyin, Bülbülün güllələnmiş büstlərinin də öz doğma yerlərinə qovuşdurdu, onların da ruhları şad oldu. Dahi şəxsiyyətlərimizin büstlərinin Şuşaya - öz əzəli vətənlərinə qaytarılması Qələbəmizin daha bir sarsılmaz rəmzinə çevrildi. İki aydan sonra, yəni, martın 16-da dövlət başçısı yenidən Şuşaya gedərək Vaqifin məqbərəsində tezliklə yenidənqurma işlərinin, məscidlərin bərpasının başlayacağının, otuz il ərzində ermənilərin qurutduğu bütün bulaqlarımızın bərpa ediləcəyinin və digər möhtəşəm planların xoş xəbərini verdi. Daha sonra Ali Baş Komandan mayın 12-də ölkəmizin tarixində əlamətdar günlərdən olan və uzun fasilədən sonra Şuşada, Cıdır düzündə keçirilən "Xarıbülbül" festivalından dünyaya mesajlar verərək qürurla qeyd etdi ki, biz bu gözəl ənənəni bərpa etdik və bundan sonra "Xarıbülbül" musiqi festivalı Şuşada hər il keçiriləcək : "Bu tövsiyəni festivalın təşkilatçısı olan Heydər Əliyev Fonduna mən vermişdim, çünki Vətən müharibəsində Azərbaycanda yaşayan bütün xalqların böyük payı vardır. Vətən müharibəsi bir daha onu göstərdi ki, Azərbaycanda bütün xalqlar dostluq, qardaşlıq, həmrəylik şəraitində yaşayır və bu 44 günlük müharibə bir daha onu göstərdi ki, ölkəmizdə milli birlik, milli həmrəylik vardır".Şuşanı Azərbaycanın mədəniyyət paytaxtı elan edən Prezident İlham Əliyev "Xarıbülbül" festivalındakı çıxışında onu da bildirmişdi ki, gələn il Şuşanın 270 illiyi qeyd ediləcək. Pənahəli xan 1752-ci ildə Şuşanın təməlini qoyub və o vaxtdan işğal dövrünə qədər bu şəhərdə həmişə azərbaycanlılar yaşayıblar: "Ermənilər nə qədər çalışsalar da, Şuşadan Azərbaycan ruhunu silə bilmədilər. Bəli, mənfur düşmən tərəfindən binalar dağıdıldı, məscidlərimiz dağıdıldı, tarixi abidələrimiz dağıdıldı. Ancaq Şuşa Azərbaycan ruhunu qoruya bildi".Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Şuşaya möhtəşəm və unudulmaz səfərlərindən biri də avqustun 29-da oldu. Dövlətimizin rəhbəri "Qarabağ" hotelinin, dahi Azərbaycan şairi Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin bərpadan sonra açılışında, Molla Pənah Vaqifin büstünün açılışında, Bülbülün ev-muzeyinin bərpadan sonra açılışında, dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin heykəlinin açılışında iştirak etdi. Avqustun 30-da isə bərpa edilən Vaqifin möhtəşəm məqbərəsinin önündə Vaqif Poeziya Günlərinə start verildi. Poeziya Günlərinin açılışında iştirak edən Prezident İlham Əliyev bildirdi ki, şəhərdə artıq çox böyük işlər görülüb və Şuşaya ikinci-üçüncü dəfə gələnlər bunu görürlər. Ölkəmizin başçısı müharibədən sonra ilk dəfə Şuşaya yanvarın 14-də gəlməsinin də təsadüfi olmadığını qeyd edib. Belə ki, 39 il əvvəl burada Ulu Öndərin iştirakı ilə Vaqifin məqbərəsi açılmışdı və məhz yanvarın 14-də mənim buraya gəlməyimin çox böyük rəmzi mənası var idi: "Buraya ilk səfərimdə ilk göstərişlərdən biri də o oldu ki, Vaqifin məqbərəsi bərpa edilsin, çünki vandallar bu məqbərəni dağıtmışdılar, sökmüşdülər".Dövlət başçısı bir daha vurğuladı ki, Şuşanın bərpası ilə bağlı qısa müddət ərzində böyük işlər görülüb. İlk növbədə, Zəfər yolu çəkilib. Magistral yol da çəkilir, Şuşanın elektrik təsərrüfatı bərpa edilib, yarımstansiya tikilib. Şuşaya suyun verilməsi bərpa edilib və indi iki mənbədən Şuşaya su gəlir. Şuşanın tarixi abidələrinin bərpasına start verilib. Vaqifin məqbərəsi artıq bərpa edilib. Ermənilər tərəfindən dağıdılan Vaqifin büstü bərpa edilib və ikinci açılışı həyata keçirilib. Üç məsciddə təmir-bərpa işləri gedir, Yuxarı Gövhər ağa məscidinin təmiri bitmək üzrədir. Saatlı və Aşağı Gövhər ağa məscidlərinin təmiri ilə bağlı göstərişlər verilib. Bu məscidlərin təmirini Heydər Əliyev Fondu öz üzərinə götürüb. Natəvan bulağı bərpa edilib...

### QALİB LİDERİN QƏTİYYƏTİNİN VƏ UZAQGÖRƏNLİYİNİN, "ƏZİZ ŞUŞA, BİZ SƏNİ DİRÇƏLDƏCƏYİK!" SÖZÜ İLƏ ƏMƏLİNİN ÜST-ÜSTƏ DÜŞMƏSİNİN REALLIĞIDIR

Bəli, Müzəffər Ali Baş Komandan, Böyük Sərkərdə, Prezident İlham Əliyevin 19 illik gərgin əməyinin nəticəsində formalaşan güclü Ordumuz 30 il işğal altında qalan torpaqlarımızı 44 gün ərzində azad etdi, ölkəmiz öz ərazi bütövlüyünü təmin etdi, "Şuşasız Qarabağ, Qarabağsız Şuşa yoxdur" deyən Ulu Öndər Heydər Əliyevin arzusunu da bu gün Prezident İlham Əliyev "Şuşasız işimiz yarımçıq qalar" deyərək reallaşdırdı. Və İkinci Qarabağ savaşını "Dəmir yumruq"la qazanan Ali Baş Komandan İlham Əliyev "dəmir iradə" ilə işğaldan azad edilən şəhər və rayonları, qəsəbə və kəndləri bərpa edir, yenidən qurur və çox böyük layihələr reallaşdırır. Və bir sözlə, bu ilin Şuşa ünvanlı, Şuşa hədəfli olması ilə dövlət başçımız həm xalqımızın, həm də dünya ictimaiyyətinin diqqətini bir daha bu qədim Azərbaycan şəhərinə yönəltmişdir. Bununla Azərbaycan dövləti Qarabağın qədim Azərbaycan torpağı və Şuşanın da əsl Azərbaycan şəhəri olduğunu bir daha dünyaya çatdırır. Bir sözlə, belə bir qısa vaxtda gerçəkləşdirilən və dünyada analoqu olmayan layihə Azərbaycan dövlətinin gücünü, onun malik olduğu potensialı və ən əsası Prezident İlham Əliyevin qətiyyətini bütün dünyaya göstərdi və bu gün Şuşa yenidən qurulur, özü də daha möhtəşəm, daha əzəmətli. Budur, "Şuşa İli"nin sevinci, qüruru. Bəli, düşmənin 28 illik işğal dövründə burada qura bilmədiklərini Azərbaycan dövləti "Şuşa İli"nin 11 ayında həyata keçirdi və bu proses bu gün də davam edir və ən əsası Prezident İlham Əliyevin qətiyyətini bütün dünyaya göstərdi və "Şuşa ili" Azərbaycanın tərcümeyihalında hər zaman yaddaqalan olacaq.

**RƏFİQƏ KAMALQIZI**

# İki payızın bir yazı...



***Bir ömrü iki payızın arasına sığdırmışdı Uca Tanrım. O ömür ki payızda başlamışdı, payızda da bitdi. Bu payız günlərinin birində müsahib olduğum payızın özü ilə "Yolayrıcında söhbət"imizdə xatırlamışdıq həmin ömrü yenidən. Məmməd Araz yurdu Nursu kəndini üç hissəyə - aşağı, orta və yuxarı məhəllələrə bölən yolayrıcında. Yaşıl yosunu bozarmış dağların, xəzan yelinin taqətini ağaclardan üzdüyü yarpaqları, düzlərin otunu - avarını sovurub bir küncünə topladığı dərələrin soluxmuş rənglərinin müşayiətilə üz tutmuşdum orta məhəlləyə - Məmməd Arazın doğulduğu, uşaqlıq çağları keçən məhəlləyə.***

Göz baxdıqca uzanan dərələrin sonsuz dərinliklərində küləyin vıyıldayıb yalçın qayalara çırpılaraq ətrafda əks-səda verən səsində həzin bir ayrılıq nəğməsi duyulur. Bu, ömrünün tamamına sayılı günlər qalan payızın özünə bəstələdiyi ayrılıq nəğməsidirmi, yoxsa illər öncə "Yazda ölüm asan olur, Allah, yaza saxla məni", - deyən Məmməd Arazı yaza qısqanan payızın onu öz ağuşunda yeni bir dünyanın sakininə çevirərkən bu sarsıdıcı ayrılığa həsr etdiyi nəğmədirmi? Yox, bu nəğmə iki payızın arasındakı bir yazın gülünə-çiçəyinə, axarına-baxarına, rənglərinə heyranlıq, çağlamasına, coşmasına qısqanclıq nəğməsidir. İki payızın arasındakı yaza, bahara - Məmməd Araz ömrünə, yaradıcılığına qibtədən yaranan ayrılıq nəğməsidir

Yolboyu dinlədiyim bu nəğmə zirvəsi buludlarla qonşu olan dağların sinəsinə yayıldıqca şairin "Zirvəsində qanad açdım, ətəyində süfrə açdım, qoyub gəldim gözüyaşlı, dağlar çətin qala mənsiz" misraları da qarışır bu nəğməyə. Yolboyu mənə yoldaşlıq edən bu vüqarlı dağlardan ilham alıb cavab verirəm şairə: - Bu dağlar sənsiz qalmazdı, təsəllisi sən olmasaydın, ey dağlar şairi, dağ vüqarlı şair. Dağı poetikləşdirdikcə, lirikanın, şeiriyyətin baş qəhrəmanına çevirdikcə dağlar səni duydu, əyilmədi, ərimədi, əzəmətdən düşmədi. Dağ ulu baba, dağ ata oldu şeirlərində. Dağ kiçilib övlad oldu, yenidən böyüdü şeirlərində. Bax, beləcə, sənsiz qala bildi.

İkicə addımlığındayam "Atlanam qonşunun qara damından, köhnə daxmamızı görəm yuxuda", - deyən şairin ata ocağının. Bu ata yurdunda İnfil kişinin qara suvağına əllərinin izi düşən köhnə daxmanın yerində indi ikimərtəbəli yaraşıqlı ev ucalsa da, bu əzəmətli bina mənim gözümdə balacalaşıb Məmməd Arazın doğulduğu, uşaqlığından xatirələr hopan kiçik daxmaya çevrilir. Ətrafında payızın ayrılıq nəğməsi ilə ağaclardan ehmalca enib üst-üstə yığılan, içinə girsən, bəlkə də, dizədək qalxan xəzan yarpaqlarının arasında kəndi qədər kiçik bir daxma. Bu daxmada od var, ocaq var, bir də müqəddəslik var...

Çırpısı tətikdə, odunu dəmdə,
Səhərin gözündən od alıb ocaq,
Yanır aram-aram, onu sinəmdə
Sonra kim söndürüb, kim yandıracaq?

-deyən şair, ata ocağı, onun odu-alovu ilə qovrulan köksündə o odu sənin şeiriyyətin yandırdı. Bu od sönməyəcək ki, kimsə yandırsın. O od sevgidir, bu xalqın şairinə istəyi, məhəbbətidir. O od odluqdan lap çoxdan çıxıb, məşələ dönüb, əbədi bir məşələ...

Payız nə gözəl müsahibdir Məmməd Araz haqqında. O payızdan bu payıza - 89 il əvvəlki oktyabrdan 89 il sonrakı dekabrın arasına bahar yeniliyi, yaradıcılığı, təravəti, qayəsi sığan 71 illik ömürdən söhbət açır.

Əlli il! Bəsimdir, orta bir ömür,
Taleyin hökmü də baxtını bilir.
Ulduzlar qocalır,
Ulduzlar ölür.
Mən nəyəm? Zərrənin milyonda biri.

- deyib 50 yaşla vədələşən, "Vay odu - olasan yataq yorğunu, vay odu - vədinə ölüm gecikə" söyləyən şairin alın yazısı onun vədinə xilaf çıxır. 50 ilin üstünə 21 il də qoyub onu həyatın acılı-şirinli günlərindən keçirərək 71 yaşında bir payız günü ömrün son mənzilinə yolçu edir.

İnfil kişinin, Cahan xanımın nəfəslərinin istisi, bir-birlərinə olan sevgisi ilə qurulan, beş övladlarını böyütdükləri bu kiçik daxmadan çıxan Məmməd İbrahim vurğun olduğu Araz qədər böyüsə də, coşub, kükrəsə də, hələ atasının verdiyi Məmməd adına Araz yükünü yükləsə də, bu daxmanı unutmurdu. Elə unutmurdu ki, yuxularından da çıxmırdı. Məncə, bu, ona görə idi ki, həmin daxmada onun alnına şairlik yazılmışdı. Bu daxmada bir Vətənin, bir millətin ürəkdən yananına çevrilmişdi. Bu daxmada hələ o doğulanda Məmməd Araz doğulmuşdu...

...Mən nəyəm? Zərrənin milyonda biri deyirdin, Məmməd Araz. Xeyr, sən zərrənin milyonda biri yox, milyonda bir zərrə idin. Milyonlarda olmayan Vətən, millət, yurd sevgisi vardı qəlbində. Vətən qələmində ən dəyərli söz, qəlbində "Nəğmə" idi - "Azəri nəğməsi". Bu dünyadan köçənədək "Millət yolu haqqın yolu, ucal, millət bayrağı, Vətən andı xalqın yolu, yaşa, Vətən torpağı", - deyib millətini xoş sabah sorağında keşikdə durmağa, qandan, qandaldan uzaq bir dünya qurmağa çağırdın. Araz şeirinin "pərisi" oldu. Ömrün boyu "Araz yadıma düşüb", "Araz üstə çinar gördüm", "Arazın işıqları"nda "Yenə Arazı gördüm" dedin, dedin... Sən bir Azərbaycan sevdalısı doğuldun, yaşadın, "Azərbaycan, dünyam mənim" deyə-deyə ana yurdun hər daşına üz qoydun.

Azəri eşqin Vətən hüdudlarını aşıb türk soydaşımız, sənin haqqında söylədiyi sözlərlə ürəyimizi titrədən Salih Okumuşun "Çağdaş Azərbaycan şairi Məmməd Araz" adlı doktorluq dissertasiyasına çevrilib, onu ədəbiyyatşünas-alim də etdi. Müəllif eyniadlı kitabında yazır: "Məmməd Arazın sirri bir insan ömrünün bir şair ömrünə qurban verilməsi bahasına ortaya çıxmışdır. O, olduğu kimi görünən, göründüyü kimi olmağa çalışan bir şairdir. Azərbaycan torpağını Arazsız təsəvvür etmək mümkün olmadığı kimi, bugünkü Azərbaycan şeirini də Məmməd Arazsız düşünmək mümkün deyil. Məmməd Araz bütün Azərbaycan deməkdir. O Azərbaycan ki şairin ifadəsi ilə "qayalarda bitən bir çiçək, çiçəklərin içində qaya"dır".

"Məndən bu dünyaya nə qaldı görən?" - deyən şair, sənin dünyan Vətənin, Vətənə qalan isə sözün idi - dəyərli, kəsərli, düşündürən, təsir edən sözün...

Bu dünyam Vətənin xəritəsidir,
O, göz dağlayası, göz örtəsidir.
Şeir, söz səhəri, söz ertəsidir,
Vətənə qaldısa, yada qalmadı.

Milyonlarda olmayan yanğı vardı qəlbində, Məmməd Araz. Lirika, romantika, şeiriyyət fəlsəfəsi vardı içində. Sən torpaq şairi, dağ şairi, təbiəti şeirə gətirən şairsən. Qəlbindəki çırpıntını, hərarəti şeirə çevirən, həqiqəti şeiriyyətə gətirən şairsən. "Məhəbbətin öz yeri var", - deyib məhəbbəti şeirə gətirən şairsən. "Göy altında, yer üstündə" "Necə yaşadımsa..." söyləyən, "Əgər mən özümlə üz-üzə gəlsəm" "Şair, nə qazandın?" sualına "Hesabat" verən şairsən.

"Yolçu, yolun haradı?" soruşub, "Qoşulum sənə bəlkə, birləşib çıraq olduq, yolu itənə bəlkə" dedin. Yolçu səni yoldaş etməyəndə ürəyinə üz tutub "Mənə biganəlik öyrət, ürəyim!" deyib "Qıvrılım içimdə, yatım içimdə. Yaxşını yamandan seçə bilməyim, büdrəyim, yıxılım, batım içimdə" arzuladın. Lakin biganəlik hara, sən hara, şair. Nə qıvrıla, yata, nə də büdrəyə bilməzdin. Əksinə, yuxusuz gecələrinə özün şam oldun, yandın, əridin. Çünki səni vurğunu olduğun təbiət belə yetirmişdi: millət fədaisi, Vətən sevdalısı, söz cəfakeşi

Elə bu düşüncələrlə də geri qayıdanda, yolayrıcına çatanda "Nursuya gələsən, Məmməd Arazın evmuzeyinə baş çəkməmiş geri qayıdasan, həm də şairin anım günü ərəfəsində, doğru olmaz", - deyib üz tutmuşdum yuxarı məhəlləyə. Gözəlliyinə bir az da payız rənglərinin qatılıb başqa aləm yaratdığı yuxarı məhəlləboyu sənin muzeyinə doğru addımladıqca "Nə bilim" şeirinə bəstələnmiş mahnını dodaqaltı zümzümə edirdim:

Səndən mənə bir ömürlük xatirə,
Məndən sənə nə qalacaq, nə bilim?..

Bu misraların cavabını kəndin ən yüksək və mənzərəli yerində, şairin xatirəsinə yaradılan muzeydə tapıram: Səndən bu dünyaya böyük bir irs qalıb - ədəbi toplu, bənzərsiz poeziya, doyumsuz lirika. Vərəqləndikcə hələ neçə-neçə nəsilləri "qidalandıracaq", millimənəvi ruhuna çökə biləcək, sanki bu gün üçün yazılıbmış kimi təsir edəcək bir irs.

Xalq şairinin adına layiq muzeyi gəzib, şairin həyat və yaradıcılığı ilə bir daha tanış olandan, şəxsi və muzeyə hədiyyə olunan əşyalara, fotoşəkillərə tamaşa edəndən sonra bir daha iki payızın bir yazının - Məmməd Araz baharının əsl xəzinə, hələ də tam aşkarlanmamış bir xəzinə olduğunu düşüncələrinə dalmışdım da...

Bayırda axşamçağının sazağında hələ də ayrılıq nəğməsini oxuyan payızın müşayiətilə geri qayıdarkən "Nə bilim"in növbəti misrası yenə də dilimdə idi:

Bu oyunda kim uduzdu, kim uddu?

Bu oyunda sən uddun, Məmməd Araz. Mənimsə bu misraya cavabım belədir: - Həqiqətən də, oyunlardan ibarət həyata sən poeziyanla, duyğularınla, cəsarətinlə qalib gəldin, Məmməd Araz

***Mətanət Məmmədova***

## "Heydər Əliyev ili" elan olunması hər kəsin ürəyindən xəbər verir"



Cənab Prezident İlham Əliyev Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" 29 noyabr tarixində sərəncam imzalamışdır. Sərəncamda qeyd olunub ki, "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı" təsdiq edilsin, bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti Azərbaycan Respublikası Prezidentinin Administrasiyası həyata keçirsin və Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin. Mövzu ilə əlaqədar olaraq SİA millət vəkili Musa Qasımlının fikirlərini öyrənib.

Millət vəkili qeyd edib ki, 2023-cü ilin "Heydər Əliyev ili" elan olunması hər kəsin ürəyindən xəbər verir: "Çünki həmin ildə müasir Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyevin 100 illiyi tamam olacaq. Sərəncama əsasən, Heydər Əliyev ilində bir sıra beynəlxalq toplantılar, sərgilər, idman yarışları keçiriləcək və əsərlər yazılaraq, məqalələr dərc olunacaq".

***Banuçiçək Hüseynli***

PUBLISISTIK DÜŞÜNCƏ.ORG

# Könüllülük fəaliyyəti gənclərə nə verir?

*İstənilən insan fəaliyyəti onun xarici aləmlə, cəmiyyətlə, sosial mühitlə qarşılıqlı əlaqəsi prosesində baş verir. İnsan və cəmiyyət arasında qarşılıqlı əlaqə formalarından biri sosiallaşma prosesidir. İnsan cəmiyyətin tamhüquqlu üzvü olur, onun normalarını, qaydalarını, tələblərini mənimsəyir. Gənclərin sosiallaşmasına imkan yaradan fəaliyyətlərdən biri də könüllülük fəaliyyətidir.*





### Bəs, könüllülük fəaliyyəti gənclərə nə verir?

SİA mövzu ilə bağlı araşdırma edib. Bu gün dünyanın bir çox ölkəsində könüllü iş gündəlik sosial təcrübəni təşkil edir: insanlar ağac əkmək, sağlam həyat tərzini təbliğ etmək, ekoloji aksiyalar keçirmək, konfranslar, forumlar təşkil etmək, hüquq pozulmalarının profilaktikasını həyata keçirmək və ümumi problemləri həll etmək üçün bir yerə toplaşırlar.

Bu, Azərbaycanda da geniş şəkildə özünü göstərir. Belə ki, 2009-cu ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Könüllü fəaliyyət haqqında" Qanun imzalamışdır. Bundan başqa, "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı"nın məqsəd və vəzifələrinə ölkədə könüllülük hərəkatını inkişaf etdirmək, gənclərin könüllülük hərəkatının stimullaşdırılması və yerlərdə intensivləşdirilməsi daxildir. Bəşər tarixində elə bir cəmiyyət yoxdur ki, könüllü və qarşılıqsız yardım ideyaları ona yad olsun. Bir şəxsin və ya qrupun bütövlükdə cəmiyyətə, yaxud ayrı-ayrı şəxslərə etdiyi könüllü yardım bəşəriyyətin insani ideallarına qarşılıqsız xidmət ideyalarına əsaslanır, qazanc əldə etmək, ödəniş almaq və ya karyerada yüksəlmək məqsədi güdmür. Könüllülük fəaliyyəti insanı bir sıra faydalarla təmin edir. Yeni tanışlıqlar və yeni peşə bacarıqları, biliklər və hətta yaxşı karyera qurmaq imkanı əldə edir. Tələbələr arasında könüllülük hərəkatının böyük mənəvi və tərbiyəvi əhəmiyyəti var.



### Gənclərin iştirakı

Gənclərin könüllülük hərəkatında iştirakı peşəkar fəaliyyətlərdə iştirakda ilkin təcrübə qazanmaqla onların rəqabətqabiliyyətliliyinin və peşəkar səriştəsinin artırılması kimi mühüm vəzifənin həllinə kömək edir, peşəkar oriyentasiya və formalaşma imkanlarının artırır.

"ASAN Könüllüləri" Təşkilatının sədri Emiliya Bayramova: "Könüllülük qanunvericiliklə qadağan edilməyən ictimai faydalı və gəlirsiz bir fəaliyyətdir. Hər bir şəxs öz iradəsi ilə seçim əsasında bu fəaliyyətlə məşğul ola bilər. Azərbaycanda da çox sevindirici haldır ki, könüllülük geniş vüsət alıb. Hal-hazırda ölkədə bir çox könüllük fəaliyyətini həyata keçirən qurumlar var. Xüsusilə "ASAN könüllüləri"ni vurğulamaq istəyirəm. "ASAN könüllüləri" hərəkatı artıq 10 ildir ki, fəaliyyət göstərir. 2012-ci ildən etibarən "ASAN Xidmət" mərkəzlərində ictimai faydalı bir fəaliyyət olaraq könüllük fəaliyyətindədir. "ASAN könüllü"sü olmaq istəyən gənclər könüllü.asan.com.az saytına daxil olaraq qeydiyyatdan keçə bilər. 2 ay müddətində müraciətə baxılır və həmin şəxsi müsahibəyə dəvət olunur. Müsahibədən uğurla keçdikdən sonra ilkin təlimə cəlb olunur və daha sonra 3 ay master 1 pilləsi üzrə xidmət mərkəzlərində könüllü fəaliyyətə başlayır. Üç ay müddətində də müxtəlif təlimlərə və layihələrə cəlb olunur. Bununla da həmin mərkəzin fəaliyyətinə, həm də özünün inkişafına dəstək olur. "ASAN könüllülərin" mərkəzlərində master 1 çərçivəsində vətəndaşların müraciətlərinə baxılmasına kömək olur, müxtəlif sorğular ötürür, eyni zamanda vətəndaş axınını tənzimləyir. "ASAN könüllüləri" hərəkatı master 2 pilləsi də var. Bu artıq müvafiq olaraq öz ixtisası üzrə gənclərin təcrübə əldə etməsinə dəstək olan bir pillədir. Master 2 pilləsinə, master 1 pilləsi bitirdikdən sonra könüllülər müraciət edirlər.

2013 cu ildə "ASAN Könüllüləri" Gender İctimai Birliyi yaradılıb. İctimai birliyin əsas fəaliyyəti ölkəyə gənc peşəkar kadrların yetişdirmsinə dəstək olmaqdır. Həmçinin "ASAN könülülərin" də müxtəlif istiqamətlərində bilik və bacarıqlarını inkişaf etdirməsinə şərait yaradır. "ASAN könüllülər" təşkilatı bu günə qədər sosial, mədəni, ekoloji təhsil və digər istiqamətlər üzrə 750-dən çox yerli və beynəlxalq layihə, 5000-dən çox təlim, seminar həyata keçirilərək 100 mindən çox gənci əhatə etmişdir. Bu il dekabr ayından bu təşkilatın artıq 9 illiyi tamamlanacaq. Öz fəaliyyətində seçilən "ASAN könüllüləri" daha sonra könüllü olaraq fəaliyyətini davam etdirmək istəyərlərsə master 1 və master 2 pillələrində sonra "ASAN Gənclər təşkilatı"nın ictimai birliyinin də fəaliyyətinə olaraq qoşula bilərlər.

Bir gəncin könüllü olaraq fəaliyyət göstərməsi belə bir nəcib fəaliyyətə qoşulması insanın vətənpərvərliyinin, cəmiyyətə qatmaq istədiyi dəyərlərdən, faydadan həmçinin özünün qazandığı bəhs edir. Hər bir gənc üçün bu fəaliyyətin çox müsbət cəhətlərin olması platformaları bir gəncin müxtəlif istiqamətlərdə inkşafı üçün çox mühüm rol oynayır. Onun ünsiyyət bacarıqların inkişaf etdirməsinə, iştirakçılıq bacarıqların artmasında çox böyük dəstək olur".

***Havar Şəfiyeva***

ARAŞDIRMA



Elçin Bayramlı

## Naxçıvanda antikorrupsiya tədbirləri niyə siyasiləşdirilir?

***Bir neçə gündür ki, mediada Naxçıvanla bağlı ziddiyyətli xəbərlər yayılır. Sosial şəbəkələrdə spekulyasiyalar və dezinformasiyalar baş alıb gedir. Bəzi qüvvələr məqsədli şəkildə prosesləri siyasiləşdirməyə və başqa don geyindirməyə çalışır. Əslində isə, məsələ iqtisadi xarakterlidir. Məlum olduğu kimi, bir müddətdir ki, respublikada antikorrupsiya tədbirləri güclənib. Paytaxt Bakı da daxil olmaqla bütün regionlarda korrupsiyaya qarşı mübarizə aparılır və bu kontekstdə korrupsiya əməli törədən məmurlar cəzalandırılır. Təbii olaraq, Naxçıvan bölgəsi də istisna deyil. Azərbaycan qanunları və dövlət siyasəti bütün regionlar kimi, Naxçıvana da aiddir və heç bir istisna ola bilməz.***

İndiyədək, bütün ölkə üzrə korrupsiya, dövlət vəsaitinin mənimsənilməsi hallarına qarşı sərt tədbirlər və həbslər olub. Lakin onların heç birində məsələ siyasiləşdirilməyib. Eyni proses Naxçıvanda aparılanda nədənsə bəzi qüvvələr oretalığa düşüb ağlına gələni uydururlar və mediada yayırlar. Bu iddiaların da heç bir əsası yoxdur və heç bir fakta söykənmir.

Araşdırmalar göstərib ki, Naxçıvana gətirilən mallarda külli miqdarda gömrükdən yayınma halları var. Bu yayınma isə, dövlətin, yəni xalqın pulunun bəzi şəxslərin cibinə yönəlməsi deməkdir. Bu, əlbəttə ki araşdırılmalı və cəzası verilməli idi. İlk araşdırmada söhbət 130 milyon manatın mənimsənilməsindən gedir, amma şübhə yoxdur ki, korrupsiyanın miqyası daha böyükdür.

Bundan başqa, hər il Naxçıvan Muxtar Respublikasına dövlət büdcəsindən 500 milyon manat civarında dotasiya ayrılır. Muxtar Respublikanın öz büdcə gəliri isə 180 milyon manat civarındadır. Bu, əlbəttə, doğru göstərici ola bilməz, çünki bu rəqəm bir rayonun iqtisadi gəlirləri qədərdir. Naxçıvanda isə 1 şəhər və 7 rayon var. Adi məntiqlə yüz milyonlarla vəsaitin mənimsənildiyi aydın olur.

Naxçıvanın 2021-ci il üçün büdcənin icrasına dair açıqlanan rəqəmlərdən məlum olur ki, həmin il ərzində muxtar respublikanın büdcəsinin gəlirlərinin 21.6 faizini və ya 31,4 milyon manatını gömrük ödənişləri təşkil edib. Göründüyü kimi, dövlət büdcəsinə ödənilən gömrük haqqından xeyli çox məbləğ mənimsənilib.

Naxçıvan blokada şəraitində yaşadığından oraya həmişə xüsusi diqqət, qayğı olub və çox sayda güzəştlər tətbiq edilib. Lakin görünən odur ki, bəzi məmurlar bundan şəxsi məqsədləri üçün istifadə edirlər. Naxçıvanda aparılan quruculuq və abadlıq işlərinin, muxtar respublikanın ölkənin ən abad regiona çevrilməsi, dövlətin bu regiona göstərdiyi yüksək qayğının nəticəsidir. Lakin özünüidarə hüququndan bir qrup məmurun öz məqəsdi üçün istifadəsi yolverilməz idi və cəzalandırılma da olmalıdır. Burda qəribə heç yoxdur. Heç bir tədbir görülməməsi qəribə olardı.

Hər bir halda, yüz milyonlarla dövlət cəsaitinin mənimsələnilməsi üzrə araşdırma aparılır və bunu edənlər cəzalandırılırsa, bu müsbət bir haldır və alqışlanmalıdır. Buna baxmayaraq, bəzi müxalif dairələr bu işi təqdir etmək əvəzinə tənqid edirlər və saxta məlumatlar yayaraq məsələni kontektsdən çıxarmaqla müəyyən qüvvələrə xidmət edirlər.

Bu il Azərbaycan Prezidenti tərəfindən təsdiq olunmuş Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illəri əhatə edən Milli Fəaliyyət Planında bu istiqamətdə daha şəffaf və daha çevik mexanizm yaradılacağı və korrupsiyanın aradan qaldırılması üçün ciddi tədbirlər görülməsi nəzərdə tutulmuşdur. Artıq bu fəlaiyyət planı üzrə işlər sürətlənib.

Son əməliyyatlar onu göstərdi ki, bir sıra məmurların səlahiyyətlərindən sui-istifadə edərək həyata keçirdikləri korrupsiya əməllərinin qarşısının alınması istiqamətində ciddi addımlar atılır. Qısa müddətdə xeyli dövlət orqanında korrupsiya faktının üstü açılıb, dövlət vəsaitlərinin mənimsənilməsinin qarşısı alınıb, proses davam edir və edəcək. Cənab Prezidentin dediyi kimi, heç kimin toxunulmazlıq hüququ yoxdur və hər kəs dövlətə və xalqa qarşı etdiklərinə görə cavab verəcək.

# Tehran “beşinci kolon" axtarır

***İran rəhbərliyinin sentyabr ayından bəri davam edən etirazların qarşılığını almaq kursu ali liderin bacısı qızının həbsinə səbəb olub. Fəridə Muradxani beynəlxalq ictimaiyyəti müxalifətlə həmrəy olaraq İslam Respublikasını təcrid etməyə çağırdığına görə hüquq-mühafizə orqanlarının əməkdaşlarının əlinə keçib.***



## *Küçə iğtişaşları İran molla rejiminin və onun müttəfiqlərinin əsəbiliyini gərildib*

Hökumət əleyhinə çıxışların Tehranın xarici əlaqələrinin zəifləməsi faktoruna çevriləcəyi ilə bağlı qorxular xaricdəki müttəfiqləri arasında da görünməyə başlayıb. Fələstin qrupları daxili qeyri-sabitlik fonunda İranın dəstəyini kəsəcəyindən qorxurlar.

Rəhbərin qardaşı qızının həbsi barədə Qərb mediası onun qardaşı Mahmud Muradxaniyə istinadən xəbər yayıb. O bildirib ki, fəal məhkəmənin qərarı ilə İran prokurorluğuna gələrkən hüquq-mühafizə orqanlarına təhvil verilib. Səbəb sosial şəbəkələrdə yayımlanan videoda Fəridə Muradxaninin beynəlxalq ictimaiyyətin iranlı nümayişçilərlə həmrəy olaraq İslam Respublikası ilə əlaqələri kəsmək öhdəliyindən danışması olub.

Sentyabr ayından ölkədə davam edən üsyanlar hicab geyinmə qaydalarının yumşaldılmasına dair tələblər səviyyəsini çoxdan aşıb, dövlət quruluşuna etiraza çevrilib. Mürəkkəbləşdirən amil Qərbin Tehranı tənqid etməsi, onu güc tətbiq etməkdə ittiham etməsidir. Belə ki, Almaniya İranda insan haqlarının pozulması hallarının araşdırılması üçün müstəqil və qərəzsiz BMT mexanizminin formalaşdırılmasının tərəfdarı olub.

Küçə etirazları ətrafındakı vəziyyət ”müqavimət oxu”nun üzvlərini - Tehranın xaricdəki müttəfiqlər şəbəkəsini də narahat edir. Qəzzada yerləşən radikal Fələstin İslami Cihad (PJI) qrupundakı Al-Monitor mənbəsi bildirib ki, hərəkat rəhbərliyi ”İran daxilində həyəcanlı və artan etirazları böyük narahatlıqla izləyir”. Onun sözlərinə görə, bunun ”gələcəkdə hərəkata dəstək”ə təsir edəcəyi ilə bağlı qorxular var.

Tehranın Qəzza zolağında təsir qruplarına kömək etməsi açıq şəkildə etiraf olunub. Bir il əvvəl HƏMAS siyasi bürosunun rəhbəri İsmayıl Haniyə bu təmasların yüksək əhəmiyyətini qeyd etmişdi. ”Bizim İranla əlaqələrimiz strateji xarakter daşıyır və müqavimət layihəsinin çox mühüm sütununu təşkil edir”, o, bunu Əl-Əqsa televiziyasına müsahibəsində deyib. İranın Fələstindəki müqavimətə siyasi, maddi, hərbi və texniki dəstək verdiyi heç kimə sirr deyil.

Yenə də bu il İsraildə terror fəaliyyəti göstərdi ki, köhnə Fələstin ”brendləri” yeniləri ilə əvəz olunur. Belə ki, son aylarda yerli ərəblərin gənc nəslinin bu il yaratdığı ”Aslan yuvası” qrupu özünün varlığını daha yüksək səslə bəyan edib. Onun xarakterik xüsusiyyəti ondan ibarətdir ki, o, digər radikal təşkilatların nümayəndələrini, çox vaxt maraqların toqquşması ilə əhatə edir.

İsrail xüsusi xidmət orqanlarının başlatdığı bu qrup üçün maliyyə mənbələrinin axtarışı indiyədək heç bir nəticə verməyib. Bununla belə, yəhudi dövlətinin Baş Təhlükəsizlik Xidmətinin (ŞABAK) mütəxəssislərinin ilkin ehtimalları var ki, yeni yaradılan təşkilata Fələstin müqavimətinin ”veteranları” maddi yardım edə bilər və onlar yəqin ki, hücumlarda birbaşa iştirakdan yayınırlar.

Vaşinqtonda yerləşən Yaxın Şərq İnstitutunun (MEI) tədqiqatçısı və ”müqavimət oxu” üzvlərinin İrandakı hadisələri diqqətlə izlədiyinə dair xəbərlər təbiidir və təbii ki, maliyyənin kəsilməsi və ya dəstəyin optimallaşdırılması qorxusunu əks etdirir”. Bu barədə Rusiya Beynəlxalq Münasibətlər Şurasının eksperti Anton Mardasov bildirib. Onun sözlərinə görə, Qəzzada müqavimət bilavasitə İranın dəstəyindən asılıdır və bunu İsrailin bu ilin avqustunda həyata keçirdiyi ”Sübh” əməliyyatı da nümayiş etdirib.

”O zaman müqavimət tez bir zamanda atəşkəsi qəbul etmək məcburiyyətində qaldı, çünki gərginləşmə nə Həmas, nə də İranın planlarına daxil deyildi”. Başqa bir məsələ odur ki, müqavimət hərəkatı həmin hadisələrdən sonra Qəzza düşərgələrindən və İordan çayının qərb sahilindən kənarda ”xal topladı” ki, bu da müəyyən vəsait axınına səbəb ola bilər. Buna baxmayaraq, hərəkatın əsas sponsorunun vəsait axını son vaxtlar dəyişməz olaraq qalır.

Qəzzaya nəzarət edən HƏMAS-a gəlincə, bu fraksiya, Mardasovun fikrincə, Suriya ilə bağlı tutduğu mövqedən sonra İranın maliyyəsi olmadan sağ qalmaq təcrübəsi qazanıb. 10 il əvvəl Ərəb baharı hadisələrindən sonra HƏMAS qrupu rəqiblərinə arxalanaraq prezident Bəşər Əsəddən uzaqlaşdı. Əlaqələri nisbətən normallaşdırmaq Tehranın vasitəçiliyi olmadan yalnız bu yaxınlarda mümkün olub.

”HƏMAS və yeni müqavimət qrupunun resursları müqayisəedilməzdir” deyə ekspert iddia edir. HƏMAS inkişaf etmiş qaçaqmalçılıq və birbaşa donor yardımı şəbəkəsinə əlavə olaraq, sanksiyalar və məhdudiyyətlərə baxmayaraq, BMT, Dünya Bankı, Avropa İttifaqı tərəfindən verilən rəsmi yardımlara çıxış əldə etməyə imkan verən kifayət qədər çoxlu inzibati rıçaqlara malikdir. Birliyin yanında Qərb, Asiya və bölgə ölkələri dayanır. Başqa bir şey də budur ki, HƏMAS son zamanlar İranla çox yaxınlaşıb, bu, məsələn, Əsədlə ictimai barışıqda özünü göstərirdi. Bu kursdan ən azı indiki mərhələdə imtina etmək onun üçün sərfəli deyil, çünki paradoksal olaraq, İsrail HƏMAS-ın fələstinlilərə təsirini azaltmaq cəhdi ilə sonuncuya daha çox iqtisadi dəstək verməyə başlayıb.

***V.VƏLİYEV***

# İranlı media nümayəndələrinin ölkəmizə qarşı qərəzli düşüncələri nəyə söykənir?



“İran Azərbaycana ambisiyalı, iddialı, dost olmayan siyasətini ölkəmizin müstəqillik əldə etdiyi dövrlərdən bu günə qədər mütəmadi şəkildə davam etdirməkdədir”. Bu fikirləri SİA-ya açıqlamasında ”BakıXəbər” qəzetinin baş redaktoru Aydın Quliyev bildirib.

Baş redaktor qeyd edib ki, İran hökuməti müəyyən zamanlarda fikir ayrılıqlarına düşsələr də onlar bizə qarşı olan düşüncələri hər zaman olduğu kimi qalır: ”Ölkəmizdə müstəqillik elan edildikdən sonra erməni təcavüzünündə ölkəmizə qarşı qızışdığı bir dövrdə İranın özünü necə apardığı bizə bəlli idi. 30 il erməni təcavüzünün davam etdiyi dövrdə İran Azərbaycanın haqqına və hüququna real şəkildə heç bir qiymət vermədi. Həmçinin bizim günahkar bir ölkə olmadığımızı heç bir zaman dilinə gətirmədi. Yalnız və yalnız guya müsəlmanların təcavüzə məruz qaldıqları ilə bağlı bəyanatlar verməklə kifayətləndi. Erməni təcavüzünün davam etdiyi bir dövrlər də Azərbaycan sərhəddin də Azərbaycan torpaqlarını erməni işğalçılarından azad etdiyi bir dövrlərdə bizimlə olan sərhədimizi mühafizə etməyə başladı. İranın Azərbaycana düşmən və qeyri-dost, qeyri-qonşu münasibətini davamlı şəkildə aparmağından xəbər verir. 1990-ci illərin ortalarında Təbrizdə konsulluğumuzun açılması zaman İranın molla rejimi müxtəlif təziqlər göstərdi. Bu konsulluğunda fəaliyyət göstərməsinə həmin molla rejimi şərait yaratmırdı. İranın media nümayəndələrinin təkcə azərbaycanlı məmurlarına və siravi insanlarına qarşı yox, Azərbaycan Respublikasının dövlət başçısına qarşı münasibətində də öz ambisiyalarını saxlaya bilməməsi bir daha onu sübut etdi ki, onlar Azərbaycana qarşı münasibətdə xüsusi rejim altında saxlanırlar. Bir müddət öncə Azərbaycan Preizdentinin keçirtdiyi geniş miqyaslı konfransda media nümayəndələri ilə görüşdə iranlı jurnalistin qərəzli sualları heç kimin gözündən yayınmadı. Həmin iranlı jurnalist o sualları ilə Azərbaycanı pis vəziyyətdə qoymağa çalışırdı. Ölkə başçısı isə iranlı jurnalistin sualına elə cavab verdi ki, onu öyrədənlərə və onun şəxsən özünə heç bir mənada sərf etmədi”.

***Banuçiçək Hüseynli***

# “Cənab Prezidentin çıxışı beynəlxalq aləmdə böyük diqqətə səbəb oldu”



“Cənab Prezident İlham Əliyevin çıxışları təkcə ölkədaxili deyil, eyni zamanda beynəlxalq münasibətlərə də həsr olunur. Onun fikirləri regionun bu günü və sabahı ilə bağlı məsələlərdə çox böyük önəm daşıyır. Bu baxımdan Azərbaycan Prezidentinin bu günlərdə ADA universitetində keçirilən beynəlxalq tədbirdəki çıxışı beynəlxalq aləmdə böyük diqqətə səbəb oldu”. Bu sözləri SİA-ya açıqlamasında deputat Aydın Mirzəzadə sözlərinə belə davam edib.

Onun sözlərinə görə, cənab Prezident həm ölkədaxili məsələlərə aydınlıq gətirdi, həm Azərbaycan-İran məsələlərinə daha çox prinsipial vacib fikirlər söylədi: ”Eyni zamanda Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasında Ermənistanın dekonstruktiv mövqeyi barəsində bir daha faktlar ortaya qoydu. Azərbaycan Prezidentinin Fransa prezidentinin iştirak edəcəyi bir tədbirdə iştirakdan imtina etməsinin özü kiçik bir ölkəni beynəlxalq birlikdə nə qədər böyük bir gücə sahib olmasının növbəti göstəricisi oldu. Azərbaycan bu gün özünün hüquqlarını qoruya bilən bir ölkəyə çevrilib. Azərbaycan bu gün sözünü deyən və ünvanlara çatdıran bir ölkəyə çevrilib”.

Deputat sözlərinə belə davam edib: ”Fransa ilə uzun müddət Azərbaycanın yaxşı münasibətləri olub. Amma son dövrdə Fransanın müəyyən dairələrinin elə Fransa prezidentinin özünün də Azərbaycanın tarixinə, Azərbaycanın milli maraqlarına toxunan bir siyasət yeritməsi əlbəttə ki Azərbaycan-Fransa münasibətlərinə çox böyük zərbə oldu. Böyük Britaniya mətbuatı nüfuzlu qonşusunun belə nüfuzdan düşməsi məsələlərini diqqətdən kənarda saxlaya bilməzdi. Bu faktın özü göstərir ki, dünyada ölkələr bir-birinin milli maraqlarına hörmətlə yanaşmalıdırlar. Dünyanı uzun müddət idarə edən beynəlxalq hüquq normalarının işləməsinə daima diqqət olmalıdır və hamı bu məsələdə dəstək olmalıdır . Böyük Britaniya mətbuatı cənab Prezidentin fikirlərinə diqqət etməklə ilk növbədə yeni müstəqil dövlətlərinin öz hüquqlarını bilməsi və onu qoruya bilməsi Azərbaycan nümunəsini ortaya qoyur”.

***Ayşən Vəli***

# Rusiyanın, yoxsa Volkovun “sülhməramlıları”?






***Bütün müharibələrin başlama və bitmə şəraiti demək olar ki, eynidir. Məhəlli, yəni iki ölkə arasında gedən müharibənin səbəb və hansı tempindən, eyni zamanda itkilərin qədərindən asılı olmayaraq sonu təxminən eyni bitir. Kiminsə, hansısa beynəlxalq təşkilatın, yaxud dövlətlər birliyinin vasitəçiliyi ilə danışıqlar başlayır və yekunda tərəflər arasında sülh imzalanır. Bəzən belə də olur ki, müharibə sona çatsa da bəzi məsələlər həllini tapmadığı üçün sülhməramlılara ehtiyac duyulur. 44 günlük Qarabağ savaşında olduğu kimi...***

Birinci Qarabağ müharibəsi SSRİ-nin dağıldığı ərəfədə başlandı. Bəzi siyasətçilər isə SSRİ-nin dağılmasını Qarabağda başlanan münaqişə ilə əlaqələndirirlər. Guya bu münaqişə olmasaydı Sovet hakimiyyəti süqut etməzdi. Amma bu, bir az yanlış fikirdir, SSRİ-nin parçalanma planı xeyli onilliklər idi ki, masada vaxtını və şəraitin yaranmasını gözləyirdi. Parçalanmaya səbəb olan faktorlardan biri də Qarabağ münaqişəsi idi desək, daha doğru olar.

Yəqin ki, müharibənin başa çatdığı tarixi xatırlayırsınız. Ağır məğlubiyyətə uğrayan Ermənistanın yalvarışlarından və kapitulyasiya aktına imza atmaq niyyətini açıqlayandan sonra 9-10 tarixlərində Azərbaycan, Rusiya və Ermənistan liderləri İlham Əliyev, Vladimir Putin və Paşinyan arasında üçtərəfli bəyanat imzalandı. Azərbaycan ordusu hücum əməliyyatlarını dayandırdı və bəyanatın maddələrinə uyğun olaraq qalan ərazilərdən erməni qoşunlarının çıxma vaxtı təyin edildi, bölgədə qalan erməni əsilli vətəndaşların müvəqqəti təhlükəsizliyini, eyni zamanda verilən vaxt ərzində onların Azərbaycan xalqına inteqrasiyasını təmin etmək üçün bura Rusiya sülhməramlı qüvvələri yerləşdirildi. Bəli, sülhməramlı qüvvələrin Qarabağa yerləşdirilməsinə hər üç ölkə razılıq verdi, 5 il müddətində onların bölgədə fəaliyyət planları tərtib edildi. Türkiyə və Rusiya hərbi mütəxəssislərindən ibarət Monitorinq Mərkəzi yaradıldı. Ağdamın Muğanlı kəndində yaradılan Mərkəzin funksiyasına isə sülhməramlı qüvvələrin və bölgədə baş verə biləcək qarşıdurmaların öyrənilməsi və aradan qal-



dırılması aid idi.

Yuxarıdakı sonuncu cümləni niyə keçmiş zamanda işlədirik, bu da səbəbsiz deyil. Çünki, nə adıçəkilən Mərkəz, nə də Rusiya sülhməramlı qüvvələri tapşırılan işlərin, vəzifələrin öhdəsindən lazımi şəkildə gəlmirlər. Gələ bilmirlər, yox, gəlmirlər. Rusiya sülhməramlılarının ilk komandiri general Muradov idi, Rusiya qəhrəmanı. Döyüş yolu həm Rusiyanın , həm də digər ölkələrin ərazisindən keçmişdi, təcrübə sarıdan kasad deyildi. Amma gəldiyi gündən ermənipərəst siyasət yürüdəcəyi, ermənilərin ağlı ilə oturub duracağı, erməni ağzı ilə danışacağı bəlli idi. Ayağını Qarabağ torpağına basan kimi buraların Azərbaycan yox, sanki Ermənistan olduğunu düşündü və belə davrandı. Bəyanata inansaq, orada Rusiya sülhməramlılarının gəlişi ilə paralel olaraq erməni silahlı qüvvələrinin Qarabağı tərk edəcəyi haqda konkret bənd var. Amma Muradov bəyanatda yazılanları belə görməzdən gələrək separatçıların atributlarına belə toxunmadı. Əvəzində isə ilkin olaraq Qarabağda qanunsuz məskunlaşmış, lakin müharibə zamanı buraları tərk etmiş ermənilərin geri qayıtmalarını təmin etdi. Halbuki, bunun sülhməramlıların səlahiyyətinə heç bir dəxli yox idi. Onlar bölgədə olan insanların təhlükəsizliyinə cavabdeh idilər. Onların siyasətə qarışmaq, tərəf tutmaq kimi mənfi fəaliyyətləri də qəbahət sayılır. Amma Rusiya sülhməramlılarının sülh yaratmaqdan, sülhə töhfə verməkdən, iki xalqı barışdırmaqdan, onları birgəyaşayışa alışdırmaqdan başqa bütün çirkli işlərə əl atdıqları hər kəsə bəllidir. Bu barədə Azərbaycanın rəsmi dövlət orqanları tərəfindən Rusiya sülhməramlılarına, onları bu bölgəyə göndərən Rusiya Müdafiə Nazirliyinə dəfələrlə etiraz məktubları ünvanlanıb. Amma hələ də müsbət dəyişiklik gözə çarpmır.

Son bir həftə ərzində Azərbaycan Müdafiə nazirliyinin Rusiyanın eyni adlı qurumuna etiraz məktubları tirajlanır. Sülhməramlı kontingentin Müdafiə Nazirliyimizin müraciətlərinə etinasız yanaşması təəssüf doğurur. Sonuncu xəbərdarlıqların birində deyilir: "Azərbaycan Respublikası ərazisindəki yaşayış məntəqələrimizin adlarının uydurma erməni toponimləri ilə qeyd olunması, o cümlədən "Dağlıq Qarabağ ərazisi" ifadəsinin işlənməsi ilə bağlı bir daha qeyd etmək istəyirik ki, bu YOLVERİLMƏZDİR.

Rusiya Federasiyasının sülhməramlı kontingentini rəsmi məlumatlarında qeyd etdiyimiz yanlış ifadələrdən istifadə etməməyə çağırırıq və bu çağırışımıza əməl olunacağına ümid edirik. Bundan başqa ölkəmizin adının da paylaşdıqları xəritədə düzgün qeyd olunmasını tələb edirik.

Bir daha xatırlatmağı özümüzə borc bilirik ki, Rusiya Federasiyasının Müdafiə Nazirliyinin rəsmi internet səhifəsində dərc olunan Rusiya Federasiyasının sülhməramlı kontingentinin 29.11.2022-ci il tarixli rəsmi məlumatında "Dağlıq Qarabağ ərazisi" kimi qeyd olunan ərazi Qarabağ iqtisadi rayonudur, "Mardakert" və "Martuni" kimi adlandırılan Azərbaycan yaşayış məntəqələrinin rəsmi adları isə müvafiq olaraq AĞDƏRƏ, XOCAVƏNDDİR.

Sülhməramlı kontingentin həmin məlumatda qeyd etdiyi guya Azərbaycan Ordusunun bölmələri tərəfindən Şuşa istiqamətində atəş açılması və nəticədə iki nəfərin yaralanması barədə xəbərin də heç bir real əsası yoxdur, tamamilə yalandır. Bu məlumatı qəti surətdə təkzib edirik".

Bəli, öz missiyasını bilərəkdən yerinə yetirməyən Rusiya sülhməramlı kontingentinin rəsmi məlu-




matlarında Azərbaycanın yaşayış məntəqələrini uydurma erməni adları ilə təqdim etməsi yolverilməz olduğu qədər də, qanunsuzdur. Sülhməramlıların Qarabağın aid olduğu dövlətin rəsmi orqanlarının etirazlarına adekvat cavab verməmək istəməməyinin səbəbi nədir? Separatçıları nə vaxta qədər dəstəkləyəcəklər? 5 illik müddətə regiona yerləşdirilmiş sülhməramlıların ömrünə cəmi 3 il qalıb. İki il müddətində heç bir iş görməyən, iki xalqın birgə yaşayışını təmin edə bilməyən, əksinə erməni separatçılarının qol-qanad açmasına, silah-sursatla təmin olunmasına yardımçı olan sülhməramlılar kimə lazımdır?

Azərbaycan Müdafiə Nazirliyi son günlər bir neçə dəfə buna etiraz bildirsə də, Rusiyanın sülhməramlı kontingenti bu açıqlamara etinasız yanaşır, Rusiyanın aidiyyəti dövlət qurumları da (MN, XİN və s.) buna reaksiya vermir. Əslində Azərbaycan-Rusiya münasibətlərinin normal məcrada inkişafı fonunda sülhməramlı kontingentin belə etinasızlığı Azərbaycan ictimaiyyətini təəccübləndirir və həm də hiddətləndirir.

Rusiya sülhməramlılarının indiki komandanı general Volkovdur. Bu şəxs də peşəkar hərbçidir, onun da hərbçi ömrünün bəzi ştrixləri müharibə qoxuludur. Bir çox qaynar nöqtələrdə olub. Volkov 1986-cı ildə Əfqanıstanda zabit kimi xidmətə başlayıb. Qroznı ətrafında yerləşən özüyeriyən artilleriya alayında xidmətə başlayıb. Cənub Hərbi Dairəsinin Radiasiya, Kimya və Bioloji Müdafiə qoşunlarının rəisi vəzifəsində çalışıb. Andrey Volkov 2017-ci ildə Suriyada xidmətə göndərilib.

Bir sözlə, münaqişə bölgələri onun alışdığı yerlərdir. Amma siyasətçi deyil, bölgənin xalqları, xüsusən münaqişə tərəfləri - azərbaycanlılarla ermənilərin xarakterik xüsusiyyətlərinə, münaqişənin tarixinə bələd deyil. Amma özünü sülh yaradan yox qubernator kimi aparır. Volkovun belə "cəsarətlənməsi" Vardanyanın gəlişindən sonra hiss olunmağa başlayıb. Bilmək olmur, Rusiyanın mövqeyini ölkənin siyasi rəhbərliyi müəyyənləşdirir, ya Volkov? Bu general bir dəfə də olsu Azərbaycanın rəsmi dövlət qurumlarının rəhbəri ilə görüşü olmayıb. Şuşanın, Laçının, Kəlbəcərin, Ağdamın, Xocavənd, Cəbrayıl Qubadlı, Füzuli, yaxud Zəngilan rayonlarının rəhbərlərindən biri ilə görüş keçirməyib. Fəaliyyəti barədə hətta Monitorinq Mərkəzinə hesabat verməyib. Versəydi mətbuatda bu barədə heç olmasa bir cümlə yazılardı. Volkov özünü lap 1980-ci illərin sonunda, münaqişənin təzə-təzə qızışdı vaxtda Qarabağda yaradılan Xüsusi Komitənin rəhbəri olmuş Arkadi Volski kimi aparır. Volski "ənənə"sinin davam etdirilməsi əlbəttə, yolverilməzdir.

Tarixmi təkrarlanır, ya nə? Arkadi Volski də 1980-ci illərin sonlarında keçmiş Dağlıq Qarabağda gərginlik yaşananda bura "komendant" təyin olunmuşdu. Azərbaycan vətəndaşları arasında ondan "razılıq" edənlər də var idi. Əlbəttə, bu yanlış münasibət ermənilərin xeyrinə idi. Volskinin erməni sevgisi də hər kəsə aşkar idi. "Dağlıq Qarabağ Muxtar vilayəti"nə ilk gəlişində İcraiyyə Komitəsinin inzibati binasının üstündəki Azərbaycanının bayrağını Ermənistanın bayrağı ilə əvəzlənməsi təşəbbüsü də Volskinin idi.

Volski xatirələrində onun Qorbaçov tərəfindən zorla Qarabağa göndərildiyi barədə qeydlər var. Guya o gəlmək istəmirmiş, amma gələn kimi nə qədər ermənipərəst olduğunu və birinci katibin göstəriş və əmrlərinin necə yerinə yetirdiyini əməlləri ilə göstərdi. Volkov da sələfindən geri qalmır, özünü müharibə-münaqişə generalı kimi aparır. Başa düşmək olmur, Qarabağda müvəqqəti yerləşdirilmiş sülhməramlılar burada əbədi qalmağımı düşünürlər? Onlar 5 ilin hesabatını verərkən o vərəqdə nələri qeyd edəcəklər? Əlbəttə, belə davam etsələr sülhməramlılarınAzərbaycan rəhbərliyinə verəcəkləri hesabatda müsbət bir cümlə, təqdir olunası bir fikrin yazılmayacağına əminik, Ermənistana və Paşinyana isə...

**V.VƏLİYEV**

RAKURS

# "ABŞ-Azərbaycan münasibətləri yüksələn xətlə inkişaf edir"



"Ötən gün Prezident İlham Əliyev ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşavirini qəbul edib. Danışıqlar zamanı ABŞ Azərbaycan münasibətləri indiki mərhələdə və əlbəttə ki, perspektivdə hansı məsələlər varsa, onlar müzakirə olunub. Düşünürəm ki, ABŞ Azərbaycan münasibətləri yüksələn xətlə inkişaf edir, necə illərdir bu münasibətlər həm beynəlxalq əməkdaşlığın bir istiqaməti olaraq, həm ikitərəfli münasibətlərin inkişafı üzrə, eyni zamanda ABŞ-ın və Azərbaycanın maraqları çərçivəsində çox müsbət əməkdaşlıq səviyyəsində davam edir". Bu sözləri SİA-ya açıqlamasında Milli QHT Forumunun prezidenti Rauf Zeyni bildirib.

Onun sözlərinə görə, bugünkü mərhələdə regionda çox mürəkkəb bir vəziyyət yaranıb: "İran və Rusiya ilə əlaqədar, bütövlükdə Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanması ilə əlaqədar, tarixi zəfər əldə olunandan sonra regionda yaranmış yeni vəziyyətin dəyərləndirilməsi ilə bağlı və bundan sonrakı münasibətlər əməkdaşlıq- tərəfdaşlıq məsələləri bu gün Azərbaycan və ABŞ ictimaiyyətini maraqlandırır. Ona görə də ABŞ həm öz region maraqları ilə əlaqədar olaraq, həm də Azərbaycan bundan sonrakı mərhələlərdə hansı formada əməkdaşlıq etmək və ə ABŞ Azərbaycan münasibətlərinin ABŞ-ın və Azərbaycanın maraqlarına uyğun faydalanmaq istiqamətində düşüncələr bu gün də ictimaiyyət tərəfindən tərəfindən müzakirə olunur.

Mən belə fikirləşirəm ki həm Azərbaycanın ərazi bütövlüyünün təmin olunması məsələsində, həm regionda sülhün, stabilliyin, sabitliyin təmin olunması məsələsində, həm iqtisadi məsələlərdə qarşılıqlı faydalı əməkdaşlıq etmək, Azərbaycanın bu günləri beynəlxalq logistika mərkəzinə çevrilməsi, Zəngəzur dəhlizinin həll olunması məsələsi və digər məsələlərdə təbii ki, ABŞ-Azərbaycan əməkdaşlığının çox böyük əhəmiyyəti var. Düşünürəm ki, tərəflər arasında olan danışıqlar zamanı bu kimi məsələlər çox böyük aktuallıq kəsb edir".

**Ayşən Vəli**

# Türkiyəli ekspert: "İran yeni geosiyasi vəziyyətdən ən çox narahat olan ölkələrdən biridir"



"Qarabağda erməni işğalına son qoyulduqdan sonra İranın Azərbaycanla bağlı son bəyanatları və Tehranın sərhəddə keçirdiyi genişmiqyaslı hərbi təlimlər iki ölkə arasında gərginliyə səbəb olub. Qarabağ müharibəsindən iki il keçməsinə baxmayaraq Azərbaycanla Ermənistan arasında problemlər gündəmdədir. Azərbaycanın işğal olunmuş torpaqlarını azad etdiyi müharibədən sonra yaranmış vəziyyət bəzi regional gücləri narahat edirdi. İran isə regionda yaranmış yeni geosiyasi vəziyyətdən ən çox narahat olan ölkələrdən biridir". Bu sözləri SİA-ya açıqlamasında türk siyasi ekspert Hakan Aktürk deyib.

Onun sözlərinə görə, Dağlıq Qarabağ regionu uğrunda iki ölkə arasında 44 günlük müharibəyə faktiki son qoyan atəşkəs sazişinin bir hissəsi kimi Ermənistan Qərbi Azərbaycan və Naxçıvan arasında nəqliyyat dəhlizinin tikintisinə razılıq verib. Ermənistan isə "Zəngəzur dəhlizi" adlanan bu nəqliyyat əlaqəsinin onun suverenliyinə və dolayısı ilə İran sərhədinə təsir edəcəyindən narahat olduğu üçün müxtəlif bəhanələr gətirərək indiyədək razılaşmanı yerinə yetirməkdən boyun qaçırıb. Tehran bu dəhlizin özü üçün iqtisadiyyat və təhlükəsizlik sahəsində müxtəlif geosiyasi risklər yaradacağını nəzərə alaraq Ermənistanı bu məsələdə də dəstəkləyib. Avqustun 10-da Ermənistanın baş naziri Nikol Paşinyanla telefon danışığında İran prezidenti İbrahim Rəisi "Hər hansı ölkəsinin regionun siyasi coğrafiyasını dəyişdirəcək təşəbbüsünü qəbul etməyəcəyik" deyib. İranın Baş Qərargah rəisi, general-mayor Məhəmməd Baqiri sentyabrın 22-də etdiyi çıxışda deyib ki, "Əvvəllər dəfələrlə dediyimiz kimi, region ölkələrinin sərhədlərinin dəyişməsini heç vaxt qəbul etməyəcəyik. Biz Azərbaycan və Ermənistana problemlərini dialoq yolu ilə həll etməyi məsləhət görürük".

Bu açıqlamalardan sonra İran İnqilab Keşikçiləri Ordusunun Azərbaycan-Ermənistan sərhədində hərbi birləşmələr qurmağa başlaması xəbəri gündəmə gəlib, İranın Azərbaycanla sərhəd təlimi Ermənistana dəstək kimi qəbul edilib.

Hakan Aktürk sözlərinə belə davam edib: "İran Naxçıvanla Azərbaycanı birləşdirərək Zəngəzur dəhlizinin reallaşmasının mümkünlüyü ilə bağlı Ermənistanla danışıqları davam edən Zəngəzur dəhlizinə alternativ kimi gördüyü "Şimal-Cənub dəhlizi"ni aktivləşdirmək üçün hərəkətə keçib. Bu çərçivədə İranın xarici işlər naziri Hüseyn Əmir Abdullahiyan oktyabrın 21-də Ermənistana səfəri zamanı Fars körfəzini Qara dənizə birləşdirməyi planlaşdıran tranzit dəhlizi üçün İran, Hindistan və Ermənistan arasında üçtərəfli mexanizm yaratmaq istədiklərini bildirib. Proqnozlaşdırılan marşrutun yaxınlığında isə konsulluq açılıb.

İranın sərhəd təlimlərindən sonra Azərbaycan Ordusu da noyabrın 2-də İran sərhədində təlimlərə başlayıb. Təlimdə hava qüvvələri, raket və artilleriya bölmələri iştirak edib.

Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 8-də Şuşada Qarabağ Qələbəsinin 2-ci ildönümü münasibətilə keçirilən tədbirdəki çıxışında "Burada əsas söz və güc bizimdir. Ordumuz qəhrəmanlıq göstərib. Lazım gəlsə, biz bunu bir daha göstərib istədiyimizə nail olacağıq. Bunu edəcəyik. Bunu hamı bilir. Ermənistanı dəstəkləmək üçün sərhədimizdə hərbi təlim keçirənlər də bilməlidir. Bizi heç kim qorxuda bilməz" ifadələrindən istifadə etmişdir.

İran Xarici İşlər Nazirliyinin sözçüsü Nasir Kənani bir gün sonra cənab İlham Əliyevin açıqlamalarına cavab verib. Kənani iddia edib ki, "Azərbaycanın Tehran və İrəvan arasında qonşuluq səviyyəsində adi danışıqlarla bağlı narahatlığı başa düşülən deyil".

**Ayşən Vəli**

# Ermənistanda




*Ermənistan tərəfi haqsız və əsassız olaraq Azərbaycanın guya təcavüzkar olması barədə fikir formalaşdırmağa nə qədər cəhd etsə də, çalışsa da, Fransa kimi ikiüzlü siyasət yürüdən ölkədən başqa heç bir dövlət, ümumiyyətlə, dünya bunu qəbul etmir, buna inanmır və bu da erməniləri bərk qıcıqlandırır.*

Artıq ermənilər bu reallıqla barışmaq məcbuyyətindədirlər ki, bütün dünya Azərbaycanı sülhsüvər ölkə, regionda təhlükəsizliyin təminatçısı kimi tanıyır və hansısa ermənipərəst qüvvələrin ölkəmiz əleyhinə istənilən anti-təbliğatı fiaskoya uğramağa məhkümdür.

Bilirik ki, ABŞ-da səfərdə olan müdafiə nazirinin birinci müavini-Azərbaycan Ordusunun Baş Qərargah rəisi, general-polkovnik Kərim Vəliyev ABŞ-ın Birləşmiş Qərargah Rəisləri Komitəsi sədrinin birinci müavini Admiral Kristofer Qredi ilə görüşü zamanı Azərbaycan ilə ABŞ arasında hərbi əməkdaşlığın perspektivləri, regional təhlükəsizlik məsələləri müzakirə olunub. Hadisələrin belə inkişaf etməsi təbii ki, həm sevindirici, həm də qürurvericidir, çünki bu, Azərbaycanın istənilən istiqamətdə uğurları, ələlxüsus diplomatik qələbələri sayəsindədir. Təsadüfi deyil ki, bizim bu qələbələrimiz, bu uğurlarımız, ölkəmizin nüfuzunun durmadan, özü də dinamik şəkildə artması düşmənlərimizin yuxusunu ərşə çəkir və erməni mətbuatını izləyərkən bunun şahidi oluruq. Şahidi oluruq ki, ermənilər Azərbaycanın uğurlarından çox qıcıqlanırlar və hətta, ölkəmizi müdafiə edən, bizimlə əlaqələrə üstünlük verən həmin o demokratik dövlət adlandırdıqları ölkələri belə hədəfə almaqdan çəkinmirlər. Təbii ki, bu, erməni xislətidir və belə bir fobiya haylar üçün yenilik deyil və lap əvvəldən bizə qarşı paxıllıqları da, bizim gücümüzün artmasından qorxduqları da hər kəsə bəllidir.

Xatırladığımız kimi, bir qədər əvvəl ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Karen Donfrid artıq dünyanın istənilən ölkəsində demokratiya tərəfdarı olması nöqteyi-nəzərindən bir sıra açıqlamalar da vermişdi və Azadlığa Dəstək Aktının 907-ci maddəsi ilə bağlı senatorların suallarını cavablandırarkən, Azərbaycana yardımın ABŞ-ın milli təhlükəsizlik maraqlarına uyğun olduğunu da bəyan etmişdi. O, açıq şəkildə bildirmişdi ki, Azərbaycana yardım sərhəd təhlükəsizliyini təmin etmək məqsədi daşıyır. Məsələ burasındadır ki, ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Karen Donfrid bu fikirləri səsləndirən zamandan indiyə qədər erməni cəmiyyəti onu da hədəfə alıb və özünə düşmən bəlləyib. Deməli, Azərbaycanın uğuru, ölkəmizin tarixi ədaləti bərpa etməsi, eləcə də dünya ölkələrinin, ələlxüsus ABŞ kimi bir ölkənin nüfuzlu şəxslərinin bizimlə münasibətlərə üstünlük verməsi, ölkəmizin mövqeyinin dəstəklənməsi ermənilərin və ermənipərəstlərin kürkünə birə salıb. Hətta işğalçı ölkənin mətbuat səhifələrində yazılanlara görə, ABŞ administrasiyası hesab edir ki, Azərbaycanın Avropa ölkələrinə enerji ixracı onların Rusiya tədarükündən asılılığını azaltmağa kömək edəcək. Qeyd olunur ki, bunu da bu yaxınlarda ABŞ Konqresinin Senatının Xarici Əlaqələr Komitəsində dinləmələrdə çıxış edən həmin Karen Donfrid deyib və bu deyilənlər də erməni cəmiyyətində rezonans doğurub. Səbəb də gün kimi aydındır. Səbəb odur ki, Azərbaycanı düşmən ölkə hesab edən ermənilər ölkəmizin uğurlarına görə yuxularını qaçırıblar, çünki bizim nüfuzumuzun artması, haqlı olduğunuzun qəbul edilməsi, bizimlə əməkdaşlığa, hətta tərəfdaşlığa üstünlük verilməsi erməni yalanlarının nəinki ayaq tutub yeriməsinin qarşısını almaqdadır, hətta onların uydurduqları miflərin puça çıxması deməkdir. "Biz çoxdan enerji təchizatının şaxələndirilməsinin tərəfdarıyıq və biz görürük ki, Rusiyadan həddindən artıq asılı olan bütün ölkələr təchizat baxımından başqa mənbələr axtarırlar. Elə bu kontekstdə də Azərbaycan mühüm rol oynayır və düşünürəm ki, çox mühüm rol oynamaqda da davam edəcək. Biz enerji ehtiyatlarının Rusiyadan tədarük edilməsindən uzaqlaşdıqca Azərbaycandan Avropaya neft və qaz tədarükünün həcmində artım müşahidə etdik", deyə Donfrid bildirib, hansıki bununla bəlli olur ki, ölkəmizə maraq artıq böyüyüb və bizimlə əməkdaşlığı ABŞ kimi bir ölkəni də qane edir. Bu fakt isə erməni cəmiyyəti üçün daha bir zərbədir, çünki ölkəmizin qüdrətinin günü-gündən artması düşmənlərimizin bizə qarşı əl-qolunun bağlanması deməkdir, hansıki bunu ən böyük məyusluqla seyr edən, qəbul edən də ermənilər, ermənipərəstlərdir. Eyni zamanda bu fakt həm də onu sübut edir ki, Ermənistanın qondarma, dırnaqarası "demokratiyası" da artıq qəbul olunmur, buna getdikcə az sayda inananlar da tapılmayacaq. Bu reallığı hətta erməni mediası açıq şəkildə etiraf da edir.

Hazırda Ermənistanda bir müharibə qorxusu var. Əslində bu qorxunun əsası da az deyil və etiraf etmək lazımdır ki, mövcudluqları dövründə ermənilərin bu qorxu hissindən başqa bir dənə də doğru hissləri olmayıb. Ermənilər rəsmi Bakının daha çox təhdid xarakterli bəyanatlar verdiyi qənaətindədirlər, hansıki bu onların qorxularının, İrəvanda olan fobiyanın əlaməti kimi başa düşülür, halbuki, Azərbaycan doğru yolu göstərir, ədalətli, beynəlxalq hüquqa uyğun təkliflər irəli sürür və əks halda nə ilə nəticələnəcəyini də bildirir. Bir çox siyasətçilərimizin, hərbi ekspertlərimizin, politoloqlarımızın Azərbaycanın yeni hərbi əməliyyatlar apara biləcəyi barədə proqnozlar verməsi belə ermənilərin qorxudur və nəzərə alsaq ki, növbəti müharibə artıq Ermənistanın tamamilə süqutu deməkdir, deməli, bu qorxu başadüşüləndir.

Məsələ burasındadır ki, Azərbaycanın bu ədalətli, haqlı, beynəlxalq hüquq norma və prinsiplərinə uyğun olan təkliflərinə ABŞ tərəfindən əks reaksiya verilməməsi erməniləri narahat edir və başa düşülməyən də məhz budur. Başa düşülməyən odur ki, niyə ermənilər hesab edirlər ki, ABŞ tam ədalətli mövqe sərgiləyən bir ölkəyə qarşı çıxmalıdır? Yaxud, NATO günləri çərçivəsində Azərbaycanda səfərdə olan NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Baş Qərargahının nümayəndələrinin ötən həftə N saylı hərbi hissədə olmaları niyə ermənilərdə qıcıq doğurmalıdır? Ümumiyyətlə, Alyansın Azərbaycana yalnız təşəkkürünü bildirməsi niyə ermənilərin başlarına daş olub düşüb? Avropa İttifaqının da məhz Azərbaycanın mövqeyini, özü də haqlı mövqeyini dəstəkləməsini erməni cəmiyyəti həzm edə bilmir. Səbəb elə əvvəldən də bəlli idi və bu da ondan ibarətdir ki, Azərbaycanın uğurlarını, haqlı olduğunu, regionda təhlükəsizliyin təminatçısı olduğunu bütün dünyanın qəbul etməsi hər zaman olduğu kimi, yenə də, yumşaq şəkildə desək, ermənilərin əhvalını pozur.

Bir sözlə, uğurlarımız düşmənlərimizin yuxusunu ərşə çəkib. Əldə etdiyimiz uğurlu nəticələriniz, 44 günlük müharibənin məntiqi nəticəsi olaraq əldə etdiyimiz Zəfərin ardınca da diplomatik qələbələrimiz, ölkəmizin qüdrətinin, eləcə də dünyada nüfuzunun artması, dünyanın ən qabaqcıl ölkələrinin Azərbaycanı hər istiqamətdə, xüsusən də əməkdaşlıqda dəyərləndirməsi ermənilərin, ermənipərəstlərin canına bir dərd olub. Görünür, ölkəmizin düşmənlərinin dərdi daha da artacaq, çünki Azərbaycanın uğurları, istənilən rakursda, istənilən prizmada qələbələri hələ bundan sonra da davam edəcək.

**İnam Hacıyev**

# İslamda evlilik və boşanma qaydaları necədir?





***Evlilik kişi ilə qadın arasında nikah yolu ilə qurulan birliyə deyilir. İslam dini də müsəlmanların ailə qurmasına böyük əhəmiyyət verir. İslam dini bir tərəfdən zinaya qarşı sərt tədbirlər görərkən, digər tərəfdən müxtəlif ayə və hədislərlə ailənin qurulmasını təşviq edərək ailənin bu funksiyasını asanlaşdırmağa yönəlmişdir. İslam alimlərinin əsərlərində nikahın məqsədi, yaranması, fəaliyyət göstərməsi, nəticələri və xitamından geniş bəhs edilmişdir.***

Nikah daimi birlik əsasında qurulur. Bunu təmin etmək üçün ailə qurmaq istəyən qız və kişinin bir-birini tanıması üçün məxfilik qaydaları çərçivəsində görüşmək və danışmaq, nişanlanma, ər-arvad arasında bərabərlik, ailə böyüklərinin təcrübəsindən yararlanma kimi tədbirlər nəzərdə tutulur.

Qanla, südlə və qohum-əqrəba ilə nikahı müəyyən dərəcədə haram etməklə ekzoqamiya qaydasına əsaslanan İslam dinində qadınların yalnız müsəlman kişilərlə, kişilərin isə yalnız yəhudi və xristianlarla evlənməsinə icazə verilir. İslamda bir qadınla nikah vacib olsa da, ər-arvad arasında fərdi və ictimai öhdəliklərdən asılı olaraq ədaləti təmin etmək şərti ilə eyni vaxtda dörd qadına qədər evlənməyə icazə verilir.



Quran kişilərə qadınlarla yaxşı münasibət qurmağı tövsiyə edir. Əgər ər-arvad arasında yaşamaq imkanı yoxdursa, İslamda yaxşı şəkildə ayrılığa icazə verilir. İslam şəriətində boşanma hüququ əsasən ərə verilir. Evlilik zamanı ər qadına istədiyi vaxt boşanma haqqı verə bilər. Bu hüquq sonradan qadınlara da verilə bilər. SİA mövzu ilə bağlı araşdırma aparıb.

Qafqaz Müsəlmanlar İdarəsinin sədr müavini Hacı Fuad Nurullayev: "İslamda hər bir adamın evlənmək və boşanmaq hüququ var. İslam qanunları insana evlənmək hüququ bəxş edir. Əgər şəxsin evlənməsində hər hansı bir problem olarsa, o zaman ailənin boşanması baş verə bilər. Lakin İslam dinində boşanma bəyənilməyən bir addımdır. Peyğəmbər(s.ə.s) hədis var ki, boşanmanın icra edildiyi zaman Allahın mələkləri belə ağlayar. Dinimiz çalışır ki, insan ailəsini möhkəm saxlasın və onu qorusun. Tərəflər ailəni möhkəmləndirmək üçün əlindən gələni etməməlidirlər.

İslamda həddi-büluğ və evlənmək məsələsini qarışdıranlar var. Məsələn, qız uşaqları 9, oğlan uşaqları isə 15 yaşından həddi-büluğ olurlar. Həddi-büluğ yaş həddi olma o demək deyil ki, insan bu yaşdan sonra mütləq evlənməlidir. Xeyr, bu belə deyil. İnsan o zaman evlənə bilər ki, o ailə məsuliyyətini dərk edir və bunu qoruya bilir. Onlar başa düşməlidir ki, ailə qurduqdan sonra övladları olacaq, övladlarını haqlarını qoruyacaqlar və maddi-mənəvi olaraq onları təmin etməlidirlər. Bu məsuliyyəti dərk etmək lazımdır. Bu məsuliyyəti dərk edən insan evlənmək hüququna sahibdir.

Ailənin maddi-mənəvi ehtiyacları kişi tərəfindən ödənilməlidir. Bunlar ən sadə qanunlardır ki, hər bir ailə quran insan bunları bilməlidir. Boşanma məsələsi də İslam qanunları ilə tənzimlənir. Şərtlər pozularsa, bu qanunlar pozulan zaman tərəflər boşanma iddiası edə bilərlər. İslamda bunlar var. Bunlar da təbii ki, dövlətimizin qanunları ilə tənzimlənir. Amma İslam ölkələrində bunlar şəriət qanunları ilə tənzimlənir.

Gənclərə Allahdan gözəl ailə səadəti və xoşbəxtlik diləyirik. Dua edirəm ki, Allah ailələrə boşanmalar nəsib etməsin, ailələr möhkəm olsun".

***Ayşən Vəli***

# "Bu yenilik iqtisadiyyatımıza müsbət təsir edəcək"

***"Naxçıvan Muxtar Respublikasının Dövlət Gömrük Komitəsinin ləğv edilərək Baş İdarə kimi fəaliyyət göstərməsi bir neçə aspektdən iqtisadiyyata mühüm təsir edəcək. Belə ki, ilk növbədə, korrupsiya hallarının qarşısını almaqda mühüm əhəmiyyət kəsb edəcək". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı-ekspert Eyyub Kərimli deyib.***

Onun sözlərinə görə, ikinci məsələ Naxçıvan Muxtar Respublikasının Dövlət Gömrük Komitəsi uzun illərdir ayrı bir sistem kimi fəaliyyət göstərirdi və Mərkəzi Gömrük Sisteminə inteqrasiya edilməmişdi: "Bu da yayınmalara və neqativ hallara yol açırdı. Bununla da bu məsələr aradan qalxacaq. Həmçinin, bu yenilik iqtisadiyyatımıza müsbət təsir edəcək. Belə ki, ümumi büdcəyə daxil olmalar artacaq. Bu həm yerli Naxçıvan büdcəsinə əhəmiyyətli təsir göstərəcək, həm də ölkə büdcəsinə daxil olmaların miqdarını xeyli artıracaq".




Eyyub Kərimli sözlərinə belə davam edib: "Digər tərəfdən, həm bölgədə fəaliyyət göstərən sahibkarlar artıq qanuni və dövlət tərəfindən rüsumlarla vergi ödəyəcəklər. Həmçinin, Naxçıvana digər bölgələrdən, əsasən də qonşu Türkiyədən gətirilən malların qiymətinin aşağı düşməsinə təsir göstərəcək. Belə ki, artıq rüsumlar qanuni müəyyənləşəndə və əlavə ödənişlər aradan qalxanda bu ucuzlaşmaya səbəb olacaq. Çünki neçə illərdir Naxçıvana hətta Azərbaycandan gedən məhsullara qanunsuz gömrük rüsumları tətbiq edilirdi. Bu da bahalaşmaya səbəb olurdu.

Bu gün biz Naxçıvanda bəzi qiymətlərə nəzər yetirsək, qiymətlər Bakıdan və Azərbaycanın digər bölgələrindən qat-qat baha idi. Çünki orada belə qanunsuz gömrük rusumları tətbiq edilmişdi. Digər tərəfdən, bu, Naxçıvanın və bölgənin sahibkarlıq mühitinə müsbət təsir göstərəcək, onların fəaliyyətini stimullaşdıracaqdır. Çünki fəaliyyət üçün fəaliyyət üçün heç bir məhdudiyyət olmadığından orada həm ticari əlaqələrin möhkəmləndirilməsi, həm də sahibkarların fəaliyyətinin daha da təkmilləşdirilməsi və gəlirlərin daha da artmasına səbəb olacaq. Bu da ümumilikdə Naxçıvanda həm məşğulluq və əmək bazarına, həm də orada yaşayan insanların maddi rifahına müsbət təsir göstərəcək".

## Media nümayəndələri üçün təlimlər davam edir



***İqtisadiyyat Nazirliyi iqtisadi sahədə fəaliyyət göstərən media nümayəndələrinin peşəkarlıq səviyyəsinin artırılması məqsədilə Medianın İnkişafı Agentliyi ilə birgə təlimlərin keçirilməsini davam etdirir. Media İnkişaf Agentliyinin mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, növbəti belə təlim Nazirliyin tabeliyində Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi (4SİM) tərəfindən "Dördüncü Sənaye İnqilabı və Rəqəmsal İqtisadiyyat" mövzusunda keçirilib.***

Təlimçilər - 4SİM-in Rəqəmsal iqtisadiyyat şöbəsinin rəisi Cavid Abdullayev və Layihələrin idarəolunması şöbəsinin əməkdaşları Kənan İbrahimov və Ruslan Zeynalzadə 4SİM-in fəaliyyəti, rəqəmsallaşma və rəqəmsal iqtisadiyyat, rəqəmsal iqtisadiyyatda insan kapitalı barədə təqdimatla çıxış ediblər.Tədbirdə mövzularla bağlı müzakirələr aparılıb, medianümayəndələrinin sualları cavablandırılıb. Təlimin sonunda iştirakçılara sertifikatlar təqdim olunub. Media nümayəndələrinə sertifikatları İqtisadiyyat Nazirliyinin tabeliyində Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin (4SİM) icraçı direktoru Tamerlan Tağıyev və Medianın İnkişafı Agentliyinin şöbə müdiri Natiq Məmmədli təqdim ediblər.

***Banuçiçək Hüseynli***

# Azad Laçın iki il sonra: abadlıq-quruculuq meydanında



*Prezident İlham Əliyev: "Azərbaycan xalqı yenə də birləşərək dağıdılmış bu şəhərləri, kəndləri bərpa etmək üçün əlindən gələni edəcəkdir"*

Azərbaycan xalqının çoxəsrlik tarixi əlamətdar hadisələrlə zəngindir. Lakin etiraf etməliyik ki, son iki yüz ildə xalqımızın 44 günlük Vətən müharibəsində qazandığı Zəfər qədər möhtəşəm qələbə yoxdur. Qazandığımız bu Zəfərdən iki il ötsə də hərb tarixində yeni səhifə açmış 44 günlük Vətən müharibəsindən ölkəmizdə, eləcə də dünya ölkələrində hələ də danışılır, müzakirələr aparılır. Bu Qələbə xalqımızın üzərindən məğlub, torpaqları işğal altında qalan, qaçqın və köçkün sözünü götürdü. Xalq-Dövlət-Ordu birliyinin ən yüksək səviyyədə olduğunu bütün dünya gördü. Vətən müharibəsinin əhəmiyyəti, mahiyyəti və nəticələri hələ uzun müddət təhlil ediləcəkdir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin yenilməz qətiyyəti, dəmir iradəsi, yürütdüyü güclü daxili və xarici siyasət, Preazident kimi fəaliyyəti dövründə qəbul etdiyi qərarlar, atdığı addımlar, sərgilədiyi diplomatik gedişlər, qazandığımız qələbəni şərtləndirən başlıca amillər sırasındadır.

Bu gün 1 dekabr Laçının işğaldan azad olunduğu gündür. Azərbaycan Prezidenti İlham Əliyevin 1 dekabr tarixində xalqa müraciətində Laçın rayonunun işğaldan azad olunmasının tarixi hadisə olduğunu bildirib: "Özü də bir güllə atmadan biz Laçın rayonunu qaytardıq" - deyən Cənab Prezident qeyd edib ki, döyüş meydanında əldə edilmiş parlaq qələbə bu gözəl nəticəyə gətirib çıxardı ki, üç rayonumuz - Ağdam, Kəlbəcər və Laçın bizə qaytarıldı: "Biz bu rayonları bir güllə atmadan, bir şəhid vermədən qaytarmışıq".

### "GÖRÜN BİZİM HƏM HƏRBİ, HƏM SİYASİ MÜSTƏVİDƏ NƏ QƏDƏR BÖYÜK UĞURLARIMIZ VAR"

Vurğulayaq ki, Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistanın baş nazirinin noyabrın 10-da imzaladıqları birgə Bəyanata uyğun olaraq, Ermənistan tərəfindən ərazilərin boşaldılması qrafik üzrə həyata keçirilib. Həmin qrafikə əsasən, dekabrın 1-də Laçın rayonu da erməni işğalından azad edildi. Azərbaycan Respublikası, Rusiya Federasiyası Prezidentləri və Ermənistan Respublikası baş nazirinin imzaladığı üçtərəfli bəyanata əsasən Azərbaycan Ordusunun bölmələri dekabrın 1-də Laçın rayonuna daxil oldu. Bildiyimiz kimi, Ermənistan tərəfindən Laçının işğalı zamanı 264 nəfər şəhid olmuş, 65 nəfər girov götürülmüş, 103 nəfər əlil olmuşdur. Rayon üzrə 1 yaşdan 16 yaşadək mövcud olan 24374 nəfər uşaqdan 18 nəfəri şəhid, 225 nəfəri əlil olmuş, 1071 nəfəri bir, o cümlədən 31 nəfəri hər iki valideynindən yetim qalmışdır. İşğal ilə əlaqədar rayona 7,1 milyard ABŞ dolları dəyərində ziyan dəymişdir. Laçın rayonunun bizə qaytarılması, əlbəttə ki, tarixi məsələdir, - deyən Prezident vurğulayıb ki, biz 5 min kvadratkilometrə yaxın ərazini artıq sülh yolu ilə qaytardıq: "Əlbəttə, buna sülh yolu ilə qaytarmaq demək olmaz. Biz düşməni məcbur etdik və düşmən artıq uçurum kənarında idi, tamamilə məhv olurdu. Onun başqa yolu yox idi, ya tamamilə məhv olacaqdı, ya da ki, kapitulyasiya aktına imza atacaqdı. Baxın, görün bizim həm hərbi, həm siyasi müstəvidə nə qədər böyük uğurlarımız var".





Laçın işğalı zamanı bu məkanda 50 mindən artıq əhali yaşayırdı. Onların öz doğulduqlara göndərilməsi əsas məsələrdən biridir. Təbii ki, işğldan azad olunan ərazilərimiz kimi Laçın da tamamilə dağıdılıb. " hər tərəf dağıdılıb, infrastruktur dağıdılıb, binalar sökülüb, inzibati binalar sökülüb. Hazırda o yerlərdə yaşamaq üçün şərait yoxdur. Ancaq biz o bölgələri, bütün rayonları bərpa edəcəyik, vətəndaşlarımızın normal həyatı üçün bütün addımları atacağıq" - deyə Azərbaycan Prezidenti qeyd edib.

Xatırladaq ki, Laçın rayonunda 1992-1993-cü tədris ilində - işğal olunana qədər 106 məktəb fəaliyyət göstərib. Məktəblərdə təhsil alan şagirdlərin sayı 8 min 877, müəllimlərin sayı isə 1390 nəfər olub. Laçın rayonda 1 ədəd avtovağzal, 82 avtobus dayanacağı, 2130 km uzunluğunda avtomobil yolları, 92 ədəd körpü, 1187 km uzunluğunda su kəməri, 33 su anbarı, çəmaşırxana, 15 km uzunluğunda mərkəzi kanalizasiya, 20 km uzunluğunda istilik şəbəkəsi, 14 hamam, 8 ədəd yanacaq doldurma stansiyası, 2636 km uzunluğunda elektrik hava xətləri, 498 km uzunluğunda qaz kəməri, 10200 km uzunluğunda radio-telefon kommunikasiya xətləri, 3 ədəd televiziya stansiyası və ötürücülər və sair mövcud olmuşdur. Bütün bunlar dağıdılıb. Ölkəmizin ən böyük rayonlarından biri olan Laçın zəngin təbiəti, tarixi abidələri, yeraltı sərvətləri ilə zəngin olan bir diyardır. Azərbaycanın cənub-qərbində, dağlıq ərazidə yerləşən Laçın şimaldan Kəlbəcər, şərqdən Xocalı, Şuşa və Xocavənd, cənubdan Qubadlı rayonları, qərbdən isə Ermənistanla həmsərhəddir. Rayon respublikamızın təbii sərvətlərilə zəngin guşələrindəndir. Ərazisində dünyada nadir ağac növlərindən hesab olunan qırmızı dəmirağac meşələri, çox sayda mineral su bulaqları, kobalt, uran, civə, qızıl, dəmir, müxtəlif rəngli mərmər yataqları, cürbəcür dərman bitkiləri vardır. Laçın abidələri hələ eramızdan əvvəl I-II minilliyə aid edilən Xocavənd rayonundakı Azıx və Cəbrayıl rayonundakı Tağlar mağaraları ilə müqayisə edilə biləcək qədər dəyərli və nadir abidələrdəndirlər. Buranın təbiəti isə xüsusilə füsunkardır. Dövlət başçısı çıxışında bildirib ki, Laçın rayonunda bizim böyük meşə sahələrimiz var - ərazinin 22 min hektarı meşə sahəsidir: "Bu da bizim böyük sərvətimizdir. Kəlbəcər rayonunda 24 min hektar meşə sahəsi vardır. Zəngilan və Qubadlı rayonlarında 12 min hektar və eyni zamanda, işğaldan azad edilmiş Hadrut rayonunda və Xocavənd rayonunun bir hissəsində böyük meşə sahələri vardır. Meşələr isə planetimizin ağ ciyəridir. Mənfur, vəhşi düşmən bizim meşələrimizi 30 il ərzində qırıb, talayıb və son müddət ərzində yandırıb. Buna baxmayaraq, meşə sahələrimizin böyük hissəsi toxunulmaz qalıb, çünki düşmən o meşələrə dırmaşa bilməyib, o, ucqar dağ massivlərində yerləşir. Əlbəttə, dağıdılmış və məhv edilmiş infrastrukturun, o cümlədən kəsilmiş ağacların bərpası da diqqət mərkəzində olacaqdır".

### "TARİXİ GÜNÜN ŞAHİDİ BİZİK, AZƏRBAYCAN XALQIDIR"

Zəfər qazandıqdan sonra 10 dekabr tarixdə keçirilən Qələbə paradı Azərbaycan ordusunun gücünü, qüdrətini bütün dünyaya göstərdi. Prezident İlham Əliyev "...Azadlıq meydanında paradlar çox keçirilib. Ancaq bu paradın xüsusi önəmi var. Bu, Zəfər paradıdır. Bu, tarixi hadisədir. Bu tarixi günün şahidi bizik, Azərbaycan xalqıdır..." Sevindirici haldır ki, bu paradda Azərbaycan xalqının dostu, Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan da iştirak edirdi. Müharibə ərzində xalqımız hər gün qardaş Türkiyənin siyasi və mənəvi dəstəyini hiss etdi. Paradda Azərbaycan və türk əsgərlərinin çiyin-çiyinə Azadlıq meydanından keçməsi xalqlarımızın tarixində əbədi qalacaq qürurverici hadisədir. Vətən müharibəsində olduğu kimi, parad vaxtı da ölkəmizin bütün ictimai-siyasi qüvvələri bir yumruq kimi həmrəylik nümayiş etdirirdi. Bu həmrəylik xalqımızın əvəzedilməz Liderinə olan inam, etimadın və onun ətrafında sıx birliyinin göstəricisi idi.

"Hər kəs gücümüzü gördü. Hər kəs qüdrətimizi gördü, iradəmizi gördü", - deyən Prezident bildirib ki, bu dəmir yumruq onların belini qırdı, onların başını əzdi: "Bu, birlik yumruğudur, bu, güc yumruğudur. Bundan sonra Azərbaycan yalnız inkişaf, tərəqqi yolu ilə gedəcək. Bundan sonra da biz ordu quruculuğu işində əməli addımlar atacağıq, ordumuzu daha da gücləndirəcəyik. Bütün göstərişlər verildi. İradəmiz də var, təcrübəmiz də var - əvəzolunmaz təcrübə. İndi bütün ölkələr bu Vətən müharibəsinin təcrübəsini öyrənirlər. Vəsaitimiz də var. Xalq-iqtidar birliyimiz də var. Biz göstərmişik ki, böyük xalqıq, qürurlu xalqıq. Düşməni yerə vurduq. Düşmənin belini qırdıq, məhv etdik. Bu, tarixi Qələbədir. Bu Qələbə Azərbaycan tarixində əbədi qalacaq, şanlı Qələbə kimi!"- deyə dövlət başçısı qeyd edib.

### "XALQIMIZI TƏHLÜKƏSİZ VƏ XOŞBƏXT HƏYAT GÖZLƏYİR"

Hər bir ərazidə böyük abadlıq-quruculuq işlərinə başlanılıb. Eləcə də bir əvvəl düşmən işğalından azad olunan Laçınımızda. Artıq işğaldan azad olunan ərazilərimizdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında genişmiqyaslı yenidənqurma, bərpa-quruculuq işləri davam etdirilir. Prezident İlham Əliyevin "Laçın rayonu, Zabux kənd tam orta məktəb binasının layihələndirilməsi, əsaslı təmiri və bərpası ilə bağlı tədbirlər haqqında" 22 sentyabr 2022-ci il tarixində Sərəncam imzaladı. Dövlət başçımız Laçın şəhərində Azərbaycan Bayrağını ucaldarkən belə demişdir: "Bu, tarixi hadisədir. Laçın şəhərinin azad edilməsi həmişə tarixdə qalacaq. Bu gün Laçın şəhərində, şəhərin mərkəzində, mərkəzi küçədə Azərbaycan Bayrağını qaldırmışam. Bu bayraq burada əbədi dalğalanacaqdır". Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva eyni zamanda, daha bir strateji əhəmiyyətə malik olan Laçın Beynəlxalq Hava Limanının təməlini qoyublar. Qeyd edək ki, Laçın rayonunun Qorçu kəndinin ərazisində inşa ediləcək hava limanı bir neçə mühüm amili özündə ehtiva edir. İlk növbədə, şübhəsiz ki, burada aeroportun tikilməsi ümumilikdə bölgənin sosial-iqtisadi inkişafına təkan verəcək, turizm potensialının artırılmasına səbəb olacaq. Laçın hava limanının inşası həm də işğaldan azad edilmiş tarixi torpaqlarımızda aparılan abadlıq-quruculuq işlərinin miqyasını göstərir. Olduqca mühüm strateji əhəmiyyətə malik olan Laçın aeroportu logistik mərkəzlərin yaradılmasına da töhfə verəcək. Laçın hava limanı Azərbaycanın dəniz səviyyəsindən ən hündürdə yerləşən aeroportu olacaq. Uçuş-enmə zolağının uzunluğu 3 kilometr olacaq hava limanında 6 təyyarə dayanacağının inşası nəzərdə tutulur. Bu hava limanı Kəlbəcər rayonu ərazisinə hava nəqliyyatı ilə gediş-gəlişi asanlaşdıracaq. Bir sözlə, gələcəkdə Şuşaya təyyarə ilə getmək üçün həm Füzuli, həm də Laçın hava limanlarından istifadə etmək mümkün olacaqdır.

Azərbaycanın əzəli, tarixi torpaqları işğaldan azad olunub. "Bizim ölkəmiz üçün yeni dövr başlayır", deyən dövlət başçısı artıq ölkəmizdə yeni dövrün başlandığını bildirmişdi: "Yeni quruculuq dövrü, inkişaf dövrü, azad edilmiş ərazilərimizin bərpası dövrü. Mən tam əminəm ki, Azərbaycan xalqı bu dövrdə də birlik, həmrəylik göstərəcək, güclü iradə göstərəcək. Azərbaycan xalqı yenə də birləşərək dağıdılmış bu şəhərləri, kəndləri bərpa etmək üçün əlindən gələni edəcəkdir. Biz bundan sonra böyük və qürurlu xalq kimi yaşayacağıq. Beynəlxalq müstəvidə öz sözümüzü demişik, bölgədə öz sözümüzü demişik. İstədiyimizə nail olmuşuq və əminəm ki, bundan sonra bizim xalqımızı təhlükəsiz və xoşbəxt həyat gözləyir".

***Zümrüd BAYRAMOVA***

# POLITOLOQ: “Avropa İttifaqının səylərini Fransa heçə endirir”

***"Hadisələr göstərir ki, Fransa son aylarda açıq şəkildə xüsusilə anti-Azərbaycan kursunu aparır". Bu sözləri SİA-ya açıqlamasında politoloq İlqar Vəlizadə deyib.***



Onun sözlərinə görə, bu kursun məntiqi nəticəsi bundan ibarətdir ki, Azərbaycan artıq Fransanı post münaqişə dövrünə təsadüf edən bütün məsələlərin müzakirəsindən uzaqlaşdıracaq və ya imtina edəcək: ”Yəni Fransa artıq Azərbaycan üçün məqbul olunan vasitəçi rolunda deyil. Danışıqlarda Fransa vasitəçiliyi Azərbaycan tərəfindən rədd olundu. Səbəblərini isə cənab Prezident İlham Əliyev açıq şəkildə göstərib. Təəssüflər olsun ki, Fransanın dırnaqarası canfəşanlığı, eyni zamanda, Avropa İttifaqının vasitəçiliyinə də kölgə salır. Çünki Avropa ittifaqının vasitəçiliyi ilə son aylarda aparılan danışıqların kifayət qədər böyük nəticəsi olmuşdur”.

Politoloq son olaraq bildirib ki, ancaq son aylarda müşahidə edilən Fransanın pozucu hərəkətləri Avropa İttifaqı tərəfindən aparılan danışıqlar prosesinə qoşulmaq istəyi Avropa İttifaqının da vasitəçiliyi altına xətt çəkir. Avropanın səylərini Fransa heçə endirir. Belə olan halda Azərbaycan üçün Rusiya və ABŞ təşəbbüsü ilə həyata keçirilən danışıqlar platformaları daha məqbul sayılır. Prezident İlham Əliyevin dediyi kimi, biz daha çox bu vasitəçilərlə işləməyə üstünlük verəcəyik”.

***Qönçə Quliyeva***

# KOMİTƏ SƏDRİ: “Ermənistan Fransanın vədlərinə uymamalıdır”

***“Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın baş naziri Nikol Paşinyan və Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin iştirakı ilə dekabrın 7-də Brüsseldə keçirilməsi nəzərdə tutulan görüşün baş tutmayacağının anonsunu dövlətimizin rəhbəri noyabrın 25-də Bakıda ADA Universitetində "Orta Dəhliz boyunca: geosiyasət" təhlükəsizlik və iqtisadiyyat mövzusunda beynəlxalq konfransda vermişdi. Bildirmişdi ki, Ermənistan bu görüşdə Fransa prezidenti Emmanuel Makronun iştirakını vacib hesab edir və görüşə qatılmaq fikrində deyildir. Cənab İlham Əliyevin mövqeyi isə aydındır və o, Fransanın son aylarda Azərbaycana qarşı düşmənçilik meyillərini bir neçə dəfə gündəmə gətirərək Makronun Azərbaycan-Ermənistan danışıqlarında vasitəçiliyini tamamilə rədd etmişdir." Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib.***



Millət vəkili vurğulayıb ki, bu, əlbəttə düzgün qərardır və Azərbaycanın milli maraqlarının ifadəsidir, çünki Fransanın danışıqlara qoşulmaqda başlıca məqsədi ölmüş ATƏT-in Minsk qrupu formatını bərpa etmək, beləliklə bu formatda əvvəlki illərdə olduğu kimi, Ermənistanı müdafiə etməkdir.

”Sözsüz ki, Ermənistan uzun illər ATƏT-in Minsk qrupunun fəaliyyətindən bəhrələnmiş, torpaqlarımızı işğal altında saxlamış, bu dövrdə saysız-hesabsız qətllər, təxribatlar törətmişdir. Minsk qrupu isə bütün hadisələrə laqeyd qalmış, əksinə təcavüzkarı dəstəkləmişdir. Bu sahədə Fransa və onun prezidenti Makron xüsusilə fərqlənmiş, anti-Azərbaycan mövqeyi ilə seçilmişlər. Sonuncu dəfə-Praqa görüşündən sonra Makron tamamilə həddini aşmış, xalqımıza qarşı düşmən olduğunu açıqca nümayiş etdirmiş, Azərbaycana qarşı təhqiramiz, yalan və böhtan xarakterli ifadələr söyləmişdir. Belə olan halda Makronun Azərbaycan-Ermənistan danışıqlarına qoşulması heç cür mümkün ola bilməz və Azərbaycan Prezidenti də bunu qəti şəkildə bildirmişdir.

Dövlətimizin rəhbəri ATƏT-in dəfn edildiyini, Makronun vasitəçiliyinin mümkün olmadığını bildirərkən dünyaya bir daha bəyan edir ki, Azərbaycanla diktə, təsir dili ilə danışmaq mümkün deyildir. Azərbaycan artıq kimin kim olduğunu bilir, reallıqları qiymətləndirir və gücünə inanmaqla qələbələrini təmin etməyə qadirdir. Biz gələcəyimizi müəyyən etmişik. Ermənistan öz taleyi barədə fikirləşməli, təsirlərə, yağlı dillərə uymamalı, sülhə gəlməlidir”, deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***





Mətanət Məmmədova

# Baş örtüyündən milli azadlıq hərəkatına

***Düşünürəm, görəsən İranın yüksəkvəzifəliləri bunu fikirləşmişdilər? Fikirləşmişdilər ki, belə olacaq? Məncə fikirləşməyibmişlər. Çünki fikirləşsəydilər ki, baş örtüyünün kənarından azca görünən saça görə İran başdan başa od tutub yanacaq, vallah, göz yumardılar o azca saça. Ta bu məsələni böyüdüb özlərini də odun-alovun içərisinə atmazdılar. O od-alov ki, artıq iş otaqlarının qapısının ağzındaca çırt-çırtla yanır.***

Bir vaxtlar Tehran küçələrində qısa ətəkli, başı açıq qadınlar gəzirdilər. Heç o vaxt əxlaq polisi də yox idi. Heç əxlaq polisinə ehtiyac da yox idi. Nə o vaxt, nə də bu vaxt. Çünki geyim əxlaq deyil, əxlaq da geyim deyil.

Əxlaq geyimin içindəki insanın içindədir. Bunu İranın yüksəkdə əyləşənləri də, 70-ci illərdə qadınlara məcburi şəkildə geyindirilən hicabın daimiliyinin qorunması üçün yaradılan əxlaq polisi də bilməmiş olmaz.

İnsanları əsarətdə saxlamaq üsulu idi bu, başqa heç nə. Gənc bir qızın döyülərək öldürülməsi sizlərdən birinin saçından az bir hissə görünərsə, ”aqibətiniz bu olar”ın nümayişi idi. Bəlkə də, səsinizi hansısa bir məsələdən yana çıxararsınızsa, cəzanın belə olacağının nümayişi idi. İllərlə insan hüquqları tapdalanan, kişili-qadınlı yumruq altında saxlanılan qonşu ölkədə çox yəqin ki, səbr kasası dolmuşdu. Kasada yer qalmadığı üçün təbii ki, içindəki aşıb ətrafa tökülməli idi.

Belə də oldu. Məhsanın acı taleyi, döyülərək güclü xəsarət alması, təhqir olunması insanları ayağa qaldırdı. Hansı ki, indiyədək İranda yüzlərlə, bəlkə də minlərlə qadın belə zorakılıqlarla üzləşiblər. Onların baş örtüyü boğazlarının kəndirinə çevrilib. Həyatlarını sonlandırıb.

”Ta bəsdir, zülm bu qədər yetər, təhqir bu qədər yetər”,- deyən insanlar günahsız Məhsanın zorakılığın qurbanı olmasına dözməyərək səslərini qaldırdılar. Bu səsləri yerindəcə boğmaq istəyənlər isə bilmədilər ki, artıq dövr o dövr deyil. İnsanların səbri daşıb, canları boğazlarına yığılıb.

Vallah, bilsəydilər ki, nəticə belə olacaq, məsələni bu qədər genişləndirməzdilər. Ancaq düşünmədilər, ağıllarına belə gətirmədilər. Nəticə isə belə oldu ki, İran iki aydır ki, od tutub yanır. Baş örtüyü məsələsi böyüyüb milli azadlıq hərəkatına çevrilib. İndi hər gün İranda etiraz aksiyaları tüğyan edir. Aksiya iştirakçıları hakimiyyətin dəyişilməsini tələb edirlər.

Hakimiyyət isə hələ də özünü qorumaqda, aksiya iştirakçılarını sakitləşdirmək, evlərinə göndərmək üçün güclərdən istifadə etməkdəir. Belə ki, Məhsanın ardınca 448 nəfəri də göndəriblər ki, onlardan tək 60-ı 18 yaşadək uşaq, yeniyetmə, gənc, 29-u qadındır. 10 mindən artıq etirazçı tutulub həbsxanalara doldurulub. Lakin nə fayda. Artıq ox yaydan çıxıb. Geriyə dönməsi mümkünsüzdür.

Oxu yaydan qarşıya doğru yollayanlar isə molla rejiminin baş bilənləri, insanların geyimi ilə əxlaqını səhv salanlardır. Yenə deyirəm, səhv salırlar ki, geyim əxlaq, əxlaqsa geyim deyil. Əxlaq ayrı bir məsələdir. Görünməz yerdədir. Onu yalnız sahibi nümayiş etdirdikdə görmək olur.

Həqiqətən çox maraqlıdır, qarşında baş əydirmək üçün insanların başlarına bağladığın örtük indi azadlıq bayrağına çevrilib başın üzərində dalğalanır. Bu bayrağın dalğasının küləyi günbəgün güclənir, insanları meydanlara azadlıqlarını tələb etməyə səsləyir. Bu bayrağın dalğasının küləyi molla rejimini qarşısına alıb İrandan uzaqlaşdırmağa çalışır.

Bu külək artıq molla rejiminin başında daynanların üzünə ahəstəcə toxunmaqdadır. Ahəstəcə. Lakin günlər sonra onun bir sillə kimi üzlərə çırpılacağı da şübhəsizdir. Çünki İrandakı ictimai-siyasi havalar bundan xəbər verir.

# Müasir texnologiyanın inkişafı zamanın tələbidir

***Azərbaycanda informasiya təhlükəsizliyinin təmin edilməsinin qanunvericilik bazasının formalaşdırılması və inkişaf etdirilməsi istiqamətində bir sıra mühüm qanunlar, normativ aktlar, sərəncamlar qəbul edilib. Bu sahədə əlaqədar qurumlar tərəfindən konseptual, təşkilati, elmi-metodoloji, qanunvericilik, maddi-texniki əsasların yaradılması üzrə iş aparılır. İnformasiya-kommunikasiya texnologiyaları hər bir ölkənin sosial-iqtisadi həyatına geniş nüfuz etdiyindən, müstəqil Azərbaycanın qarşısında duran mühüm vəzifələrdən biri də, məhz qlobal informasiya məkanında layiqli yer tutması və inteqrasiyası idi.***



Ölkəmiz haqqında dünyaya dolğun məlumatların çatdırılmasında xüsusi rola malik olan bu sahəyə Ulu Öndər Heydər Əliyevin ayırdığı diqqətin məntiqi nəticəsidir ki, Onun Sərəncamı ilə təsdiqlənən "İnformasiya və Kommunikasiya Texnologiyaları üzrə Milli Strategiya" qarşıya qoyulan məqsədlərə çatmaq üçün geniş yollar açmış oldu. Milli strategiya rabitə və informasiya texnologiyaları sahəsində kompleks tədbirlərin həyata keçirilməsində, bu sahənin qanunvericilik bazasının gücləndirilməsində əhəmiyyətli rol oynadı.

Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev, ölkəmizin bütün sahələrinə olduğu kimi, informasiya-kommunikasiya texnologiyaları sahəsinin inkişafına da önəm verərək, bu sahənin inkişafına yönəlmiş dövlət proqramları və zəruri islahatları həyata keçirməyə başladı.

30 noyabr tarixində dünyanın bir parçası olan Azərbaycanda Beynəlxalq İnformasiya Təhlükəsizliyi Günü qeyd olunur. Bu gün 1988-ci ilin 30 noyabr tarixindən keçirilir. Məhz həmin ilin noyabrında universitetlər, elmi-tədqiqat institutları və hərbi idarələr də daxil olmaqla, ARPANET-in minlərlə qovşağını sıradan çıxaran ilk kompyuter virusu meydana gəldi və nəhəng itkilərə səbəb oldu. Yaradıcısının adı ilə Morris "soxulcanı" adlandırılan bu virusun vurduğu ziyan, təxminən, 100 milyon dollar həcmində qiymətləndirilmişdir.

Morris "soxulcanı" göstərdi ki, informasiya təhlükəsizliyi, həqiqətən də, çox ciddi məsələdir və insanlar tərəfindən böyük səylər və müvafiq tədbirlərin həyata keçirilməsini tələb edir. Buna görə də, dünya ictimaiyyəti informasiya təhlükəsizliyinin təmin edilməsinə kompleks yanaşmanın zəruriliyi haqqında ciddi düşünməyə başladı. Həmin vaxtdan bəri informasiya texnologiyaları, təbii olaraq, informasiya cəmiyyəti inkişaf etdikcə, bu problem daha da aktuallaşır. Bunları əsas tutaraq, 1988-ci ildə Kompyuter Avadanlığı üzrə Amerika Assosiasiyası 30 noyabrı Beynəlxalq İnformasiya Təhlükəsizliyi günü elan etdi. Bütün dünyada olduğu kimi, Azərbaycanda da bu gün qeyd olunur.

### İNFORMASİYA-KOMMUNİKASİYA TEXNOLOGİYALARININ İNKİŞAFI UĞURLU GƏLƏCƏYİMİZİN TƏMİNATIDIR

Ölkəmizdə həyata keçirilən dövlət siyasətinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu göstərən "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramının (Elektron Azərbaycan)" təsdiq edilməsi haqqında ölkə başçısının məlum Sərəncamı milli strategiyadan irəli gələn vəzifələrin yerinə yetirilməsi, respublikanın informasiya cəmiyyətinə keçidinin təmin edilməsi baxımından əhəmiyyətli rol oynadı. Görülən işlərin məntiqi olaraq, artıq ölkəmizdə elektron hökumətin yaradılması, informasiya təhlükəsizliyi və digər məsələlərin həlli istiqamətində mühüm addımlar atılıb.Prezident İlham Əliyevin "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Fərmanı ölkəmizdə, nəinki elektron hökumətin inkişafı, həm də korrupsiyaya qarşı mübarizənin daha da gücləndirilməsində mühüm rol oynadı. Təbii ki, elektron xidmətlər, eyni zamanda, korrupsiya hallarının qarşısının alınması və şəffaflığın təmin edilməsinin effektiv vasitələrindən biri kimi qiymətləndirilir.

Bu gün əbəs deyil ki, İKT respublikada korrupsiya ilə mübarizə, cəmiyyətdə şəffaflığın və demokratiyanın inkişaf etdirilməsi üçün əlverişli vasitə olaraq qəbul edilir. Ölkədə "Elektron hökumət" portalı fəaliyyət göstərir və bu portala qoşulmuş dövlət qurumlarının elektron xidmətlərinin "bir pəncərə" prinsipi əsasında əhaliyə təqdimi də görülən işlərin məntiqi davamıdır. Bütün bunlarla yanaşı, vətəndaşlara xidmətlərin daha keyfiyyətli, rahat, vahid məkandan və müasir innovasiyaları tətbiq etməklə həyata keçirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində "ASAN xidmət" mərkəzləri yaradıldı ki, bu da, qısa müddətdə özünü doğrultdu.

Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin prioritet elan olunması, 2008-ci ildə "Azərbaycanda kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması", 2009-cu ildə ölkədə "Kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramının təsdiq edilməsi haqqında" Prezident İlham Əliyevin sərəncamları bu sahənin inkişafına dövlət səviyyəsində göstərilən diqqətin əyani sübutudur.

Azərbaycan, Avropa və Amerika mütəxəssislərinin birgə səylərinin nəticəsi olan, amma Azərbaycan adı ilə ərsəyə gələn, Azərbaycan bayrağının təsviri ilə kosmosa göndərilən "Azərspase-1" telekommunikasiya peykinin orbitə çıxarılması ölkəmizin daha bir nailiyyəti kimi tarixə düşdü.

Ötən müddətdə uğur əldə edilib. 2014-cü ildən "Azərspace-1" peyki vasitəsilə Azərbaycanın bütün televiziya və radio kanalları keyfiyyətli yayıma başlayıb. Həmçinin, tələb və rəqabətin artması, peyk tutumlarının bazar qiymətlərinə uyğun təklif olunması "Azerspace-1" peykinin əhatə etdiyi regionlarla əməkdaşlığı gücləndirməyə, eləcə də Livan, əfqan və ərəb bazarında fəaliyyət göstərməsinə şərait yaradıb. Hazırda "Azərspace -1" peyki vasitəsilə Azərbaycan, türk, ingilis, gürcü, fars, əfqan və digər dillərdə yüzdən artıq televiziya kanalı yayımlanır. "Azerspace-1" peyki regionda kifayət qədər tanınıb. Hazırda "Azerspace-1" peykinin resurslarının 60 faizdən çoxu kommersiya yönümlü istifadədədir. Azərbaycanın müdafiə və hərbi potensialının gücləndirilməsi işində "Azərsky" peykinin də xüsusi rolu vardır.

Ölkəmizi daha böyük uğurlar gözləyir. Peyklərin orbitə çıxarılması Azərbaycanda kosmik sənayenin inkişafında uğurlu addımlardır. Dövlət başçısının qeyd etdiyi kimi, Azərbaycan, qısa müddət ərzində, dünyanın kosmik klubunun dəyərli üzvünə çevrilibdir. İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı uğurlu gələcəyimizin təminatıdır. Dövlət başçısı tərəfindən Azərbaycanda ən qabaqcıl texnologiyaların tətbiq edilməsi, əhaliyə yüksək keyfiyyətli xidmətlərin göstərilməsi, cəmiyyətdə informasiya texnologiyalarından istifadəyə əlverişli şəraitin yaradılması üçün məqsədyönlü işlər, davamlı olaraq, həyata keçirilir.

***Nəzakət Ələddinqızı***

SORĞU

# "Yenidən qapanmalara getməyimiz düzgün olmaz"

***Son günlər koronavirusa yoluxanların sayında artım müşahidə olunur. Bu artım isə yenidən qapanmalar olub-olmayacağı sualını doğurur. SİA olaraq bununla bağlı sorğu keçirdik:***



Milli Məclisin deputatı Kamilə Əliyeva: "Son günlər koronavirusa yoluxanların sayında artım müşahidə olunur. Bu da gözlənilən hal idi. Qış fəslinin başlanması ilə xəstəliklərin də artması, eləcə də koronavirusun da sayında artımın olması proqnozlaşdırılırdı. Amma respublikada vəziyyət stabildir, nəzarət altındadır. Bu gün əgər hər hansısa bir artım müşahidə olunursa, bunun yaxın zamanda hansısa qapanmalara səbəb olacağını düşünmürəm.



Lakin ehtiyatı əldən vermək olmaz. İnsanlar yenə də gigiyenik qaydalara riayət etməli, özlərini qorumalıdırlar. Ümumiyyətlə, hazırda maskadan istifadə etmək məcburiyyəti olmasa belə, lazım gəldikdə özümüzü və ətrafdakı insanları qorumaq üçün maskalardan da istifadə etmək olduqca vacibdir".

Yazıçı-kulturoloq Aydın Xan Əbilov: "Bütün dünya, eləcə də Azərbaycan bu pandemiyanın artıq son mərhələsini keçirir. Baxmayaraq ki, bir çox ölkələrdə, xüsusilə də Çinin bir çox əyalətlərində koronavirusun yenidən alovlanmasını müşahidə edirik. Ümumilikdə hər gün bu virusa 40-50 minə yaxın insanın yoluxması faktı qeydə alınır. Amma istər Avropa, istərsə də Şərq ölkələrində biz dəhşətli bir alovlanma ilə rastlaşmırıq. Əksinə bu virusun dünya üzrə get-gedə daha da zəiflədiyini görürük.

Üstəlik də əhalinin böyük hissəsi bu virusdan necə qorunmaq lazım olduğunu çox gözəl bilir. Qapanmalar aradan qalxsa, maska taxmaq məcburiyyəti götürülsə belə yenə də insanlar ciddi şəkildə bu virusa yoluxmamaq üçün özlərini qoruyurlar. Bu baxımdan koronavirusa yoluxanların sayının artıb-azalmasını bəhanə gətirərək, yenidən qapanmalara getməyimiz düzgün olmazdı. Sadəcə olaraq maarifləndirmə işlərini yenidən gücləndirmək virusun alovlanmasının qarşısını almağa kömək edəcək".




***Səbinə Hüseynl***

# Fransa anti-Azərbaycan məqsədli siyasəti ilə nəyə nail olmağa cəhd edir?









## Makronun regionumuza olan iştahası, əslində, onun siyasi müqəddəratına ciddi əngəllər yaradır



*Fransanın anti-Azərbaycan məqsədli siyasəti səngimək bilmir və biz bunu fransız senatın ölkəmiz əleyhinə çıxardığı qətnaməsində də gördük. Lakin maraqlıdır ki, sözügedən qətnamə bu dəfə Fransanın qanunverici orqanının daha yuxarı palatasında da müzakirəyə çıxarılır və bu kimi faktın təməlində dayanan ən əsas maraq yalnız Azərbaycana qarşı siyasi təzyiqlərin artırılması ilə bağlı deyil. Yəni buradakı öndə gedən daha bir maraq Ermənistanın işğalçılıq siyasətinə, Qarabağdakı separatçılığa, ekstremizmə və terrora dəstək, eləcə də sözügedən məşum və bədnam qətnaməyə əsaslanan silahlandırma siyasətini reallaşdırmaqdan ibarətdir.*

**Azərbaycan əsla və heç vaxt buna izn verməyəcək və gərəkli olan halda bütün müvafiq cavab tədbirlərini görəcək**



O da əbəs deyil ki, Fransa Senatının ermənipərəst deputatları bir az da irəliyə gedərək həyasızcasına öz maraqlarını həyata keçirmək məqsədini güdürlər. Belə ki, bütün dünyanın, eləcə də Parisinin özünün qəbul edilmiş beynəlxalq hüquqi sənədlərə əsasən Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımasına rəğmən fransız senatorlar torpaqlarımızda "humanitar xarakterli" hər hansısa "ofisin" açılmasına və orada fəaliyyət göstərməsinə can atırlar. Söz yox ki, Azərbaycan əsla və heç vaxt buna izn verməyəcək və gərəkli olan halda bütün müvafiq cavab tədbirlərini görəcək və buna da kimsənin şübhəsi olmamalıdır!

### Fransanın Cənubi Qafqaza doğru iki hədəfi

Beləliklə, daha bir danılmaz fakt budur ki, Makron administrasiyasının Azərbaycana məlum münasibəti həm də belə qənaətə gəlməyə zəmin yaradır ki, mövcud davranış Fransanın Cənubi Qafqaz regionunda marginal aktorluğunun sübutudur. Ona görə də nəticə hasil etmək olar ki, senatın qəbul etdiyi qətnamə iki hədəfi əks etdirir:

1-ci hədəf: Fransa daxilində mövcud olan erməni diasporu İkinci Qarabağ müharibəsindən sonra yaranmış yeni reallığı ya qəbul etmir, ya da çox çətinliklə qəbul edir;

2-ci hədəf: Makron administrasiyasının əsas marağı erməni diasporunu əldən buraxmamaq və məhz həmin diasporadan istifadə etməklə Cənubi Qafqazdakı kirli maraqlarını təmin etmək.

Lakin sən saydığını say, gör fələk nə sayır. Artıq o da məlumdur ki, Makron öz ambisiyalarını realizə etmək gücündə deyil. Yaxud, Fransanın siyasəti yalnız erməni diasporuna dəstək göstərməkdən, eləcə də həmin dəstəyin müqabilində özünün dəstək almasından də ibarət deyil.

### Makron administrasiyası Cənubi Qafqaza can atır və Ermənistanı həmin məqsədi üçün peşkası qismində istifadə edir

Bu gün Fransada artıq illərdir ki, davam edən, həmçinin artan sosial-iqtisadi problemlər ölkəni ağuşuna alıb. Sarıjiletlilər etirazçı hərəkatı isə durmadan artmaqdadır. Makron xalqın böyük kəsimi tərəfindən rədd edilir və onun növbəti dəfə ölkəsinə prezident seçilməsi hətta erməni lobbisinin dəstəyi ilə də qeyri-mümkün görünməkdədir.

Bütün bunlarla paralel olaraq Makronun mövcud siyasəti davam edərsə Azərbaycan çox yəqin ki, onun administrasiyasına qarşı daha sərt, daha qətiyyətli və daha effektli reaksiyalar göstərəcək. Bu barədə Türkiyənin nüfuzlu SETA analitik mərkəzi də öz hesabatında ayrıca qeydlər edib.

Beləliklə, Fransa, daha dəqiqi isə Makron administrasiyası Cənubi Qafqaza can atır və Ermənistanı həmin məqsədi üçün peşkası qismində istifadə edir. Və bu maraq Fransa rəhbərliyinin ambisiyalarını daha qabarıq fonda nümayiş etdirsə də artıq onu da göstərir ki, Makronun regionumuza olan iştahası əslində onun siyasi müqəddəratına ciddi əngəllər yaradır.

**Rövşən RƏSULOV**

# Daşınmaz əmlak alqı-satqı qaydaları dəyişdi: Mülki Məcəlləyə dəyişiklik

## *Daşınmaz əmlakın dövlət reyestri obyektlərinə dair sərəncam verilməsi haqqında müqavilələrin notariat qaydasında təsdiqlənməsi proseduru dəyişdi*







Milli Məclisdə Mülki Məcəlləyə təklif olunan dəyişikliklər qəbul olunub. Dəyişikliyə əsasən, daşınmaz əmlak üzərində sərəncam verilməsinə dair notariat qaydasında təsdiq edilmiş müqavilənin informasiya sistemləri vasitəsilə real vaxt rejimində Elektron Hökumət İnformasiya Sistemi üzərindən ötürülmüş elektron nüsxəsi əsasında müvafiq hüquqlar daşınmaz əmlakın dövlət reyestrində dövlət qeydiyyatına alınacaq.

Daşınmaz əmlak barəsində notariat hərəkətlərinin aparılması ilə bağlı daşınmaz əmlakın dövlət reyestrindən daşınmaz əmlaka dair çıxarışın, həmin əmlakın təsvirinin, bu əmlak üzərində qeydiyyata alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair məlumatların notarius və ya qanunla müəyyən edilmiş hallarda notariat hərəkəti etməyə hüququ çatan digər vəzifəli şəxslər tərəfindən əldə edilməsi, habelə daşınmaz əmlak barəsində aparılmış notariat hərəkətinin nəticəsi olaraq tərtib və təsdiq edilmiş və həmin əmlak barəsində qeydiyyatın aparılması üçün əsas hesab edilən sənədin təsdiqləndikdən dərhal sonra elektron formada daşınmaz əmlakın dövlət reyestrinə ötürülməsini təmin etmək məqsədilə notariuslara və ya qanunla müəyyən edilmiş hallarda bu cür notarial hərəkəti etməyə hüququ çatan digər vəzifəli şəxslərə daşınmaz əmlakın dövlət reyestri arasında elektron informasiya sistemləri vasitəsilə real vaxt rejimində məlumat və sənəd mübadiləsi imkanı, onların həmin sistemlər vasitəsilə daşınmaz əmlakın dövlət reyestrinə birbaşa çıxışı təmin olunmalıdır.

Qüvvədə olan qanuna əsasən, notarius daşınmaz əmlak üzərində sərəncam verilməsinə dair müqaviləni təsdiqlədikdən dərhal sonra onu elektron formada informasiya sistemləri vasitəsilə və təsdiqlənmiş yazılı formada sifarişli poçt göndərişi vashaitəsilə daşınmaz əmlakın dövlət reyestrinə göndərməlidir. Belə müqavilə ondan irəli gələn mülkiyyət və digər əşya hüquqlarının daşınmaz əmlakın dövlət reyestrində qeydiyyatının aparılmasına dair ərizə hesab olunur və həmin müqavilə əsasında müvafiq hüquqlar dövlət qeydiyyatına alınır. Daşınmaz əmlakın təsviri, bu əmlak üzərində daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair arayış qanunla müəyyən edilmiş hallarda və qaydada notarius və ya qanunla müəyyən edilmiş hallarda bu cür notarial hərəkəti etməyə hüququ çatan digər vəzifəli şəxslər tərəfindən daşınmaz əmlakın dövlət reyestrindən elektron informasiya sistemləri vasitəsi ilə real vaxt rejimində əldə edilir.





Qeyd edək ki, hazırda hüquq sahibinin istəyi ilə ”Elektron hökumət” portalında yerləşdirilmiş daşınmaz əmlakın dövlət reyestrindən çıxarış əsasında daşınmaz əmlak üzərində sərəncam verildiyi hallarda çıxarış notarius və ya qanunla müəyyən edilmiş hallarda bu cür notarial hərəkəti etməyə hüququ çatan digər vəzifəli şəxslər tərəfindən daşınmaz əmlakın dövlət reyestrindən elektron informasiya sistemləri vasitəsi ilə ”Notariat haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq real vaxt rejimində əldə edilir. Bu maddə ləğv edilir.

Digər dəyişiklik behlə bağlıdır. Beh müqavilənin bağlanmasını təsdiq etmək və icrasını təmin etmək məqsədilə razılığa gələn tərəflərdən birinin müqavilə üzrə digər tərəfə verəcəyi ödənişlər hesabına verdiyi pul məbləğidir. Behin məbləğindən asılı olmayaraq beh haqqında razılaşma yazılı formada bağlanmalıdır.

Belə müqavilə ondan irəli gələn mülkiyyət və digər əşya hüquqlarının daşınmaz əmlakın dövlət reyestrində qeydiyyatının aparılması üçün ərizə hesab olunacaq. Həmçinin, beh haqqında razılaşma daşınmaz əmlaka sərəncam verilməsi barədə müqavilənin bağlanması ilə bağlı olduqda, notariat qaydasında təsdiq edilməlidir. Daşınmaz əmlaka sərəncam verilməsi barədə müqavilənin bağlanması ilə bağlı beh haqqında razılaşmanın notariat qaydasında təsdiq edilməsi zamanı behi alana münasibətdə Mülki Məcəllənin 225.6-cı maddəsində nəzərdə tutulmuş qaydalar tətbiq ediləcək.





Mülki Məcəllənin 225.6.maddəsinə görə isə, daşınmaz əmlaka birgə hüququ olan ərin (arvadın) razılığı olmadan daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmış hüquq barədə bağlanmış müqavilə etibarsız hesab edilir. Bu, həmçinin əldə edənin belə hüququn yalnız müqavilə tərəfinə məxsus olması barədə vicdanlı olduğu hallara da aiddir. Əgər müqavilə üzrə tərəf müqavilənin etibarsızlığını bilirdisə və ya bilməli idisə, əldə edən həmin tərəfdən etibarsızlıqdan irəli gələn zərərin əvəzinin ödənilməsini tələb edə bilər.

Məlum olduğu kimi, daşınmaz əmlakın alqı-satqısı zamanı ən çox yaranan problemlərdən biri də beh məsələsi idi. Belə ki, alan şəxsin verdiyi beh rəsmiləşmədiyindən bəzi hallarda ya şəxs bunu qaytarmaqdan imtina edir, ya da başqa müştəri daha çox pul təklif etdiyi halda onun razılaşır və behi qaytarırdı ki, bu da tərəflər arasında münaqişələrə səbəb olurdu. Məcəlləyə edilən dəyişikliklə behin notarial qaydada rəsmiləşdirilməsi bu kimi halların aradan qaldırılmasına səbəb olacaq.

Bundan başqa, dəyişikliyə əsasən, daşınmaz əmlakın ilkin və təkrar texniki inventarlaşdırılması, onun üzərində hüquqların əmələ gəlməsi və başqasına keçməsi ilə bağlı məlumatların yoxlanılması və dövlət reyestrinə daxil edilməsi, daşınmaz əmlakın hüquq sahibi, təsviri və ünvanı barədə dövlət reyestrindən məlumatların verilməsi, sxematik ünvan planlarının tərtibi ilə bağlı və bir sıra digər xidmətlərə görə xidmət haqları ödənilir.

**Elçin**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu" çərçivəsində hazırlanıb.***

SON SƏHİFƏ
Səs
1 dekabr
2022-ci il

# Qadın sürücülərin sayı niyə artır?

EKSPERT ŞƏRH ETDİ



*"Azərbaycanda son illər xanım sürücülərin sayı durmadan artır, artıq ölkəmizdə sürücülük vəsiqəsi alan xanımların sayı 60 mini ötüb". Bu sözləri SİA-ya açıqlamasında yol hərəkəti qaydaları üzrə ekspert Elməddin Muradlı deyib.*

Onun sözlərinə görə, bu qısa müddətdə baş verən dəyişiklik yollarda da qadın sürücülərin sayının artması ilə müşahidə olunur: "Demək olmaz ki, 60 min xanım sürücü sükan arxasındadır. Bəziləri sürücülük vəsiqəsi alsa da, avtomobil idarə etmir. Lakin edənlərin də sayı artmaqdadır. Azərbaycanda qadın və kişi bərabərliyi var. Buna görə qadınların da sürücü qismində sükan arxasına keçməsi normal qarşılanır. Yol hərəkəti təhlükəsizliyi baxımından yanaşanda görürük ki, xanım sürücülərin bir çoxu təcrübəsizdir. Xanımlar yol hərəkət qaydalarını kişilərə nisbətən da az bilir. Ona görə qadınlar daha çox sürücülük təlimlərinə gedərək daha yaxşı sürücülük öyrənməli, yol hərəkəti qaydalarına bələd olmalıdırlar. Xanımların sürücülüyə marağının artmasının səbəbləri var. Bunlardan ilki ictimai nəqliyyatda sıxlığın çox olması, xüsusən, işləyən xanımları avtomobil sürməyə məcbur edir. Bilirik ki, metro və avtobuslarda sıxlıq çox olur. İnsanlar sıxlıqdan qaçmaq üçün avtomobil alırlar. Bəlkə də qadınlar arasında sorğu keçirsək görərik ki, xanımların çoxu maddiyyatı çatarsa avtomobil almağa üstünlük verər".

**Qönçə Quliyeva**

# "Zob xəstəliyi zamanı çox maye qəbulu yolverilməzdir"



*"El arasında zob kimi tanıdığımız xəstəlik qalxanabənzər vəzin funksiyalarının pozulmasıdır. Burada əsas məsələ orqanizmdə kifayət qədər yodun olmamasıdır. Həmin qalxanabənzər vəzin funksiyalarını yerinə yetirməsi üçün də əsas yod lazımdır". Bu sözləri SİA-ya açıqlamasında sağlam qidalanma üzrə mütəxəssis Məhsəti Hüseynova bildirib. Onun sözlərinə görə, yod çatışmadıqda qalxanabənzər vəz böyüməyə başlayır: "Böyüdükdən sonra isə el arasında adlandırdığımız zob xəstəliyi meydana çıxır. Bu xəstəlik qadınlar arasında daha çox yayılır.*

Daxili orqanların funksiyasının pozulması, göz bəbəklərinin həddindən artıq böyüməsi, görmənin, qadın cinsi orqanının zəifləməsi və digər bir çox problemlərə yol açır. Buna görə də mütləq şəkildə bu hallarla qarşılaşmamaq üçün qidalanmamıza diqqət etməliyik. Qidalarımızda yaxşı olar ki, yod tərkibli qidalara üstünlük verək. Buna hazırkı mövsümə uyğun feyxoa, xurmanı aid edə bilərik. Bundan başqa çərəzlər həddindən artıq faydalıdır. Eyni zamanda paxlalı bitkilər də zob üçün çox faydalıdır. Ağ kələm, qırmızı kələm və turpdan da istifadə etməyimiz vacibdir.

Unlu məmulatlar, spirtli içkilər isə zob xəstəliyi üçün zərərli hesab olunan qidalara daxildir. Bunlardan əlavə mütləq şəkildə istifadə etdiyimiz yağlara da diqqət etməliyik. Gündəlik həyatımızda yodlaşdırılmış duzlardan, Naxçıvan qaya duzlarından və Himalay duzlarından istifadə etmək məsləhətlidir. Bu zaman orqanizm üçün bu duzların faydası olacaq. Xüsusilə də zob xəstəliyindən zərər çəkən insanlara kömək etmiş olacaq.

Daha vacib məqam isə kor-koranə şəkildə dərman qəbulu etmək düzgün deyil və qəti şəkildə olmaz. Çünki bu hormon balansını pozur və gələcəkdə də daxili orqanların xəstəliklərinin yaranmasına səbəb olur. Birinci növbədə də qadınlarda cinsi xəstəliklərin yaranmasına səbəb ola bilər ki, bunlara mütləq şəkildə diqqət etmək lazımdır. Zob xəstəliyi zamanı orqanizm gündəlik maye tələbatını çox ehtiyatla qəbul etməlidir. Çünki bəzən olur ki, zob xəstəliyindən əziyyət çəkən insanlar həddindən artıq su içirlər. Halbuki bu xəstəliyin hökm sürdüyü orqanizmdə çox maye qəbuluna yol verilməməlidir".

**Səbinə Hüseynli**

# Yevlaxda qızı zorla qaçırdılar



Noyabrın 28-də Yevlax Rayon Polis Şöbəsinə 26 yaşlı qızın evlənmək məqsədi ilə oğurlanması barədə məlumat daxil olub. DİN-dən SİA-ya verilən məlumata görə, araşdırmalar zamanı qızın rayon sakini Z.M. tərəfindən zorla və iradəsinə zidd olaraq qaçırılması müəyyən olunub.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində adam oğurluğunda şübhəli bilinən şəxs saxlanılıb. Faktla bağlı araşdırma aparılır.

**Ziya Hikmət oğlu**

# Məktəblərdə istilik sistemi hansı vəziyyətdədir?

"Azəristiliktəchizat" ASC ölkə üzrə məktəblərin cəmi 6, bağçaların isə 8 faizini istiliklə təmin edir. İstiliklə təmin etdiyimiz məktəb və bağçalarda hal-hazırda hər hansı bir problem yoxdur". Bu sözləri SİA-nın sorğusuna cavab olaraq "Azəristiliktəchizat" ASC-də İctimaiyyətlə əlaqələr üzrə xidmətin rəhbəri Elvin Basqallı deyib.

Onun sözlərinə görə, məktəb və bağçalar yüksək keyfiyyətli istilik sistemi ilə təmin olunur: "Yerdə qalan bağça və məktəblər isə Elm və Təhsil Nazirliyin balansında olan qazanxanalar tərəfindən istiliklə təmin olunur. Yəni, həmin bu subyektlərin istiliklə təmin olunması mövzusuna "Azəristiliktəchizat" ASC-dən çox Elm və Təhsil Nazirliyinin aidiyyatı var. Çünki biz cəmi 6 faiz məktəb və 8 faiz bağçanı istiliklə təmin edirik".



**Ayşən Vəli**

# Ərəblər Ronaldoya ilinə 200 milyon avro təklif edir!



"Mançester Yunayted"dən ayrılan Kriştiano Ronaldo Səudiyyə Ərəbistanının "Əl-Nəsr" klubuna keçməyə yaxındır. Qol.az "Marca"ya istinadən xəbər verir ki, portuqaliyalı hücumçu ilə 2,5 illik müqavilə imzalanacağı gözlənilir. Ronaldonun "Əl-Nəsr"də keçirdiyi hər mövsümə görə 200 milyon avro qazanacağı bildirilib. Bu məbləğə maaş və reklam gəlirləri daxildir.

37 yaşlı hücumçunun idman ambisiyalarını azaltmağa və zəif liqadan bir kluba keçməyə hazır olduğu qeyd olunub. Avropa klublarından heç biri Ronaldoya "Əl-Nəsr"lə müqayisə oluna bilən təklif etməyib. Xatırladaq ki, bir müddət əvvəl Ronaldonun "Mançester Yunayted"lə müqaviləsinə xitam verilmişdi. İndi forvard azad agent statusundadır.

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 3600